www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14-17 iyun 2025-ci il Şənbə № 102 (8712) Qiymət 60 qəpik

**Xəbər**

## Bu gün məktəblərdə "Son zəng" çalınacaq

yazısı səh.11-də

**Gündəm**

### SOS: İrəvan süni intellekt fabriki yaradır - Azərbaycana təhdid



Ərazi iddiası ilə yaşayan Ermənistanın yeni projesindən narahat olmalıyıqmı?

yazısı səh.5-də

### Separatçılar yeni "namizəd" axtarışında - erməni həyasızlığı bitmir

yazısı səh.5-də

### Moskva Bakı və İrəvandan əl çəkmir - Vasitəçilik israrı

yazısı səh.7-də

### Şad xəbər: qeyri-neft gəlirlərimiz artır

yazısı səh.14-də

### Paşinyanın "siçan-pişik" oyunu: səbrimiz sınağa çəkilir

yazısı səh.7-də

### Uşaqlar üçün ən uyğun istirahət məkanları - Valideynlər oxusun!

yazısı səh.13-də

### Kondisioner qoşmayan taksiləri cəza gözləyir

yazısı səh.10-da

### "Qarabağ"dan kütləvi ayrılıq - taktik dəyişiklik, yoxsa...

yazısı səh.15-də

### Avtobus zolaqlarının statusu dəyişir? - Tıxaclara təsiri

yazısı səh.12-də

### Milli Məclisdə mühüm müzakirələr- qanun layihəsi etiraz doğurdu

yazısı səh.6-da

### AZAL bu istiqamətlərə uçuşları ləğv etdi

yazısı səh.2-də

# İRANA ŞOK ZƏRBƏ - İSRAİLİN "HÖRÜMÇƏK TORU"NUN SENSASİON DETALLARI

Təl-Əviv əməliyyatın iki həftə sürəcəyini bəyan etdi; Tehranın qisası nə olacaq? Bölgə partlayış həddində



yazısı səh.9-da

# Bakıya "dostcasına" təzyiq? - Avropa Şurası ünvanı yenə səhv saldı

Qurumun Baş katibi Ermənistana deyil, Azərbaycana diplomatik təzyiqin zəruriliyinə işarə etdi - Reaksiya

yazısı səh.8-də




*Deputat:*

### "Bu qanun kasıb təbəqəyə təsir etməyəcək"

yazısı səh.13-də



### Trampdan hədə: "Vəziyyət daha da mürəkkəbləşəcək"

yazısı səh.9-da



*Kamran Əsədov:*

### "10 mindən çox tələbənin xaric olunması sistemin zəifliyidir"

yazısı səh.10-da



## Zakir Həsənov iranlı generalla bağlı başsağlığı verdi

**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Bağerinin həlak olması ilə bağlı başsağlığı verib. "Yeni Müsavat" xəbər verir ki, başsağlığında qeyd olunub:**

"İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Bağerinin həlak olması xəbəri məni dərindən kədərləndirdi. Şəxsən tanıdığım, hər zaman öz peşəkarlığı və xoş münasibəti ilə seçilən Məhəmməd Bağeri xoş xatirələrlə yadda qalacaq.

Mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir, səbir diləyirəm.

Allah rəhmət eləsin!"

## Ərdoğan: "Netanyahu bölgəni fəlakətə sürükləyir"



**Türkiyə İsrailin İrana qarşı hücumlarını qınayır. APA-nın İstanbul müxbiri xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib. O, İsrailin İrana hücumunu "beynəlxalq hüquqa məhəl qoymayan açıq-aşkar təxribat" adlandırıb. Ərdoğanın sözlərinə görə, İsrail Baş naziri Benyamin Netanyahunun administrasiyası bölgəni və bütün dünyanı fəlakətə sürükləməyə çalışır.**

## AZAL bu uçuşları ləğv etdi

**Yaxın Şərqdə baş verən son hadisələr və bir sıra ölkələrin hava məkanlarının təhlükəsizlik səbəbindən bağlanması ilə əlaqədar Azərbaycan Hava Yolları aviaşirkətinin 13 iyun 2025-ci il tarixinə planlaşdırılan bəzi reysləri ləğv edilib. "Unikal" xəbər verir ki, bu barədə AZAL məlumat yayıb.**

Həmin reyslər aşağıdakılardır:

X Bakı-Lahor-Bakı
J2 145/146
X Bakı-Mumbai-Bakı
J2 059/060
X Bakı-Dammam-Bakı
J2 8205/8206

AZAL uçuşların təhlükəsizliyini əsas götürərək vəziyyəti daim nəzarətdə saxlayır və sərnişinləri hər hansı yenilik barədə operativ şəkildə məlumatlandıracaq.

## Sabiq baş nazir həbs olundu

**Ermənistanın Korrupsiyaya qarşı Mübarizə Komitəsi ölkənin keçmiş baş naziri Ovik Abramyanı saxlayıb. Axar.az xəbər verir ki, bu barədə "Hraparak" mənbələrinə istinadən məlumat yayıb.**

"Bu gün səhər saatlarında Korrupsiyaya qarşı Mübarizə Komitəsi Ermənistanın keçmiş baş naziri Ovik Abramyanı saxlayıb. Hazırda onun evində axtarış aparılır", - mənbə bildirib.

Qeyd edək ki, Abramyan çirkli pulların yuyulmasında, vəzifə səlahiyyətlərindən sui-istifadədə və qanunsuz sahibkarlıqda ittiham olunur. O, 2014-2016-cı illərdə Ermənistanın baş naziri olub.

## "Son zəng" günü 37 dərəcə isti olacaq

**Bakıda və Abşeron yarımadasında iyunun 14-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən Musavat.com-a verilən məlumata görə, şimal-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 20-22° isti, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunundan 756 mm civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 50-55 % olacaq.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüzdən bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Mülayim şərq küləyi bir sıra ərazilərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 18-22° isti, gündüz 32-37° isti, dağlarda gecə 9-14° isti, gündüz 17-22° isti olacaq.

# Əhalinin nəzərinə: Orta aylıq maaş artıb



**2025-ci ilin yanvar-aprel aylarında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 1100,6 manat təşkil edib.**

"Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Qeyd edilib ki, 2025-ci il mayın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1771,7 min nəfər olmuş, onlardan 876,3 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 895,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 13,7 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.



## Pezeşkian: "Cavabımız güclü olacaq"

**İran Prezidenti Məsud Pezeşkian İsrailin İran ərazisinə endirdiyi zərbələrə görə güclü cavab veriləcəyini deyib. Musavat.com xəbər verir ki, o, televiziya ilə müraciətində xalqı ölkə rəhbərliyinə inanmağa və birliyə səsləyib. O qeyd edib ki, İsrail bu hərəkətinə görə peşman olacaq: "Cavabımız güclü və hesablanmış olacaq".**

## Ermənilər 260 min hektar meşəni məhv edib

**Azərbaycan əraziləri işğal dövründə ekoloji terrora məruz qalıb. Təbiət abidələri və meşə sahələrinin bir hissəsi ermənilər tərəfindən məhv edilib.**

APA-nın Qarabağ bürosu xəbər verir ki, bunu Xankəndidə İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun iclasında çıxış edən Ekologiya və təbii sərvətlər nazirliyinin müavini Vüqar Kərimov deyib. Onun sözlərinə görə, işğaldan sonra aparılan monitorinqlər zamanı müəyyən olunub ki, işğal zamanı 260 min hektar meşə sahəsi məhv edilib.

Onun sözlərinə görə, işğaldan sonra 54 min hektar ərazidə bərpa işləri aparılıb və 2024-cü ildə 300 hektar ərazi bərpa edilib. Hazırda 200 hektar ərazidə bərpa işləri gedir.

## Musiqi və incəsənət məktəblərinə qəbul başlayır

**17 iyun 2025-ci il tarixindən etibarən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən uşaq musiqi, incəsənət məktəb və mərkəzlərinə 2025/2026-cı tədris ili üzrə I sinfə şagird qəbulu imtahanları başlayır.**

Nazirlikdən Modern.az-a verilən məlumata görə, məktəblərə qəbul üçün ümumilikdə 18 665 namizəd qeydiyyatdan keçib. Onlardan 16 548 nəfəri musiqi, 1 427 nəfəri rəssamlıq, 690 nəfəri isə xoreoqrafiya istiqamətləri üzrə müraciət edib.

İmtahanlar rayon və şəhərlərdə mərkəzləşdirilmiş formada, aidiyyəti üzrə təşkil olunmuş imtahan mərkəzlərində aparılacaq.

Namizədlərə imtahan tarixi və yeri barədə bildirişlər bu gün ərzində şəxsi kabinet, elektron poçt və SMS vasitəsilə təqdim olunacaq.

Qeyd edək ki, qəbul prosesi Mədəniyyət Nazirliyi tərəfindən şəffaflıq və obyektivlik prinsipləri əsasında rəqəmsal texnologiyaların tətbiqi ilə təşkil olunur.

## Paşinyan: "Rus qoşunları ölkədə qalacaq"



**Ermənistan baş naziri Nikol Paşinyan bəyan edib ki, ölkəsi Rusiya ilə münasibətləri pozmaq və ya Rusiya hərbi kontingentini ölkədən çıxarmaq niyyətində deyil.**

Musavat.com xəbər verir ki, bu açıqlama onun Avropa İttifaqı ilə əməkdaşlıq barədə verdiyi bəyanatlardan sonra səslənib.

Paşinyan bildirib: "Bəli, bizim parlament Avropa İttifaqına üzvlüklə bağlı qanun layihəsini qəbul edib və biz Aİ ilə çox sıx əməkdaşlıq qurmuşuq. Amma bu o demək deyil ki, biz Rusiya ilə münasibətləri pozmağa çalışırıq. Bizim xarici siyasətimiz tarazlaşdırılmış və çoxşaxəlidir. Bu, bizim strateji yanaşmamızdır".

## Yardımlıda traktor aşdı, sürücü öldü

**Yardımlıda ölümlə nəticələnən qəza baş verib. APA xəbər verir ki, hadisə rayonun Urakəran ərazisində baş verib.**

Yaqub Qəliyev idarə etdiyi "Belarus" markalı, 65-T-211 dövlət qeydiyyat nişanlı traktoru qoşqu ilə birlikdə aşırıb, nəticədə aldığı xəsarətlərdən hadisə yerində ölüb. Faktla bağlı araşdırma aparılır.

## Polis 17 kiloqram narkotik aşkarladı

**Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə iyunun 12-də ümumi çəkisi 17 kiloqrama yaxın narkotik vasitə və kultivasiya yolu ilə yetişdirilmiş 97 ədəd çətənə kolu götürülüb, yabanı halda bitmiş 7 tona yaxın çəkidə 28168 ədəd çətənə kolu isə aşkar olunaraq məhv edilib. Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, bu istiqamətdə qətiyyətli mübarizə tədbirləri davam etdirilir.**

## Masallıda piyadanı vurub öldürdü

**Masallıda piyada ölüb. "Unikal"ın məlumatına görə, hadisə Ələt-Astara magistralının 131 km-də Masallı rayonu ərazisindən keçən hissəsində qeydə alınıb. Lerik rayon Pirasora kənd sakini 1959-cu il təvəllüdlü Teyyub Balağa oğlu Bağırov idarə etdiyi "Nissan" markalı minik avtomobili ilə hərəkətdə olarkən yolu əks istiqamətə keçmək istəyən piyadanı vurub. Piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Əraziyə aidiyyəti qurumların nümayəndələri cəlb olunub. Hazırda piyadanın şəxsiyyəti dəqiqləşdirilir. Faktla bağlı araşdırma aparılır.**

## İsrail səfirlikləri bağladı

**İsrailin Rusiyadakı səfirliyi son hadisələrlə əlaqədar ölkənin dünya üzrə bütün diplomatik nümayəndəliklərinin fəaliyyətini dayandırdığını bəyan edib. Bu barədə "RİA Novosti" məlumat yayıb. Məlumatda vurğulanır ki, bu qərar bölgədə baş verən son hadisələr fonunda qəbul olunub.**

İsrailin rəsmi qurumları vəziyyəti qiymətləndirərək diplomatik nümayəndəliklərin müvəqqəti bağlanmasını təhlükəsizlik baxımından zəruri hesab edib.

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

# Nazirlikdə 143 milyon oğurluğun pərdəarxası

**Bakı Apellyasiya Məhkəməsində Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin sabiq rəisi, general-mayor Nizami Məmmədov, Hərbi Hava Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi, polkovnik Cəlal Kazımov, Quru Qoşunlarının Maliyyə İdarəsinin sabiq rəisi Bayram Bayramov və Hərbi Dəniz Qüvvələrinin Maliyyə Xidmətinin sabiq rəisi Vüsal Əlizadənin barəsindəki cinayət işi üzrə verilmiş apellyasiya şikayəti üzrə məhkəmə prosesi davam etdirilib.**



Musavat.com xəbər verir ki, işə hakim İbrahim İbrahimlinin sədrliyi ilə baxılıb. Prosesdə təqsirləndirilən Cəlal Kazımovun həyat yoldaşı Nüşabə Kazımova, oğlu Emin Kazımzadə, qızı Aytən Niftəlizadənin müdafiəçisi, vəkil Əli Adıgözəlov çıxış edib. Vəkil çıxışı zamanı ailə üzvlərinə məxsus əmlakların müsadirəsinə dair qərarın əsassız olduğunu bildirib. O vurğulayıb ki, həmin əmlakların əldə edilməsi ilə bağlı sübutlar birinci instansiya məhkəməsinə təqdim edilsə də, bu sübutlara məhkəmə tərəfindən lazımi qiymət verilməyib.

Vəkilin sözlərinə görə, Aytən Niftəlizadənin adına olan ev ona qayınanası tərəfindən hədiyyə edilib, Emin Kazımzadənin mülkiyyəti isə ona əmisi tərəfindən bağışlanıb. Müdafiə tərəfi bu əsaslarla əmlakların üzərindən həbsin götürülməsini və apellyasiya şikayətinin təmin olunmasını istəyib. Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə Nizami Məmmədov və Bayram Bayramov 11 il 6 ay, Cəlal Kazımov 11 il, Vüsal Əlizadə isə 10 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Məhkəmə həmçinin dövlət büdcəsinə vurulmuş ziyanın tam ödənilməyini əsas gətirərək təqsirləndirilən şəxslərin əmlaklarının müsadirə olunmasına qərar verib. Bu əmlakların dövlət nəfinə keçirilməsi qərarı ziyanın ödənilməsinə yönəlib. İttihama əsasən, təqsirləndirilən şəxslər Müdafiə Nazirliyinin müxtəlif strukturlarında vəzifə səlahiyyətlərindən sui-istifadə edərək dövlət büdcəsindən ayrılan vəsaitləri mənimsəyiblər.

Cinayət işi üzrə ümumilikdə 143 milyon manat məbləğində dövlət vəsaitinin mənimsənildiyi bildirilir. İttiham olunan şəxslərin hər birinə Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə törətmək) maddəsi ilə ittiham irəli sürülüb. Qeyd edək ki, iş üzrə Maliyyə Nazirliyi zərərçəkmiş qismində tanınıb. Cinayət işi çərçivəsində digər təqsirləndirilən şəxslərin barəsində olan işlər ayrıca icraata ayrılıb və müvafiq məhkəmələrdə baxılır. İş üzrə növbəti məhkəmə iclası iyunun 30-na təyin olunub.

❑ **E.MƏMMƏDƏLİYEV, Musavat.com**

# "Obnaliçka işi"ndə şok: yarım milyardlıq mal-mülk var!

**Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluq və külli miqdarda vəsaitin leqallaşdırılması ittihamı ilə təqsirləndirilən Bahadır Qasımov, İkram Qasımov, Fərhad Qasımov, Cavid Əzizov, Vəli Əliyev və Anar Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi davam edir.**



Musavat.com xəbər verir ki, hakim Anar Sadıqovun sədrliyi ilə keçirilən iclasda iş üzrə sənədlər tədqiq olunub. Proses zamanı təqsirləndirilən şəxslərin SMS yazışmaları və digər sənədlər elan edilib. Yazışmaların elan olunmasını təqsirləndirilən İkram Qasımovun müdafiəçisi Vüqar Əliyev xahiş edib. Yazışmalar açıqlanarkən məlum olub ki, təqsirləndirilən şəxslər öz aralarında razılaşmaları, alış-veriş zamanı aldıqları pulları müzakirə ediblər. Müdafiəçi Kamandar Nəsibov vəsatətlə çıxış edərək müvəkkilinin mobil telefonuna yenidən baxış keçirilməsini istəyib. O, həmçinin bildirib ki, bu həcmdə olan cinayət işi üzrə təqdim edilmiş audit yoxlaması cəmi 4 səhifədən ibarətdir və bu, işin miqyasına uyğun deyil. Kamandar Nəsibov ekspert rəyinin əsassız olduğunu qeyd edərək ekspertin barəsində xüsusi qərardad çıxarılması üçün vəsatət verib. İclasda digər vəsatətlər də müzakirə olunub. Müdafiə tərəfi iş üzrə aparılmış əmtəəşünaslıq ekspertizasının nəticələri ilə razı olmadığını bildirib və təkrar ekspertiza keçirilməsini istəyib. Vəkil, həmçinin təqsirləndirilən Cavid Əzizovun və onun yaxın qohumlarının adına olan əmlakların üzərindən həbsin götürülməsi barədə vəsatət qaldırıb. Müdafiəçinin sözlərinə görə, istintaq orqanı həmin əmlakların cinayət nəticəsində əldə edilib-edilməməsini müəyyən etmədən məhdudiyyət tətbiq edib. O, əmlak sahiblərinin məhkəməyə çağırılaraq dindirilməsini də tələb edib. Dövlət ittihamçısı vəsatətlərin təmin edilməməsini xahiş edib. Qısa müşavirədən sonra vəsatətlərin təmin olunmaması barədə qərar elan edilib.

Qeyd edək ki, 2023-cü ildə Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi tərəfindən Yasamal rayonu ərazisində aparılan əməliyyat tədbirləri nəticəsində mütəşəkkil cinayətkar dəstənin fəaliyyəti ifşa olunub. Həmin əməliyyat nəticəsində Bahadır Qasımov, İkram Qasımov, Fərhad Qasımov, Cavid Əzizov, Vəli Əliyev və Anar Əhmədov saxlanılıb. İttihama əsasən, dəstə üzvləri xarici ölkələrdən Azərbaycana və əks istiqamətə qanunsuz pul köçürmələri həyata keçiriblər, qeyri-qanuni bank fəaliyyəti göstərərək külli miqdarda vergidən yayınıblar. Pulların leqallaşdırılması prosesləri Bakı, İstanbul və Dubay şəhərlərində təşkil olunmuş ofislərdə aparılıb. Təqsirləndirilən şəxslərin vasitəsilə xarici ölkələrə ümumilikdə 254 milyon 409 min 947 manat qanunsuz pul köçürüldüyü müəyyən edilib. Onlar bu əməliyyatlar müqabilində ümumilikdə 2 milyon 500 min manat məbləğində xidmət haqqı əldə ediblər. Axtarış zamanı İkram Qasımovun yaşadığı evdən və ofisdən 1 milyon 500 min ABŞ dolları, 1 milyon 400 min manat, ABŞ istehsalı olan odlu silahlar, dəyəri təxminən 1 milyon manata yaxın 100-ə yaxın qızıl-zinət əşyası aşkar edilib. Məlumata görə, həmin zinət əşyaları ölkəyə qaçaqmalçılıq yolu ilə gətirilib. Bundan başqa, saxlanılan şəxslərin və onların ailə üzvlərinin adına olan çoxsaylı daşınmaz əmlak, həmçinin 100-ə yaxın bahalı avtomobil və digər nəqliyyat vasitələrinin üzərinə həbs qoyulub. Ümumilikdə əmlakların dəyəri yarım milyard manata yaxındır. Məhkəmə prosesi iyulun 25-də davam etdiriləcək.

❑ **Elşən MƏMMƏDƏLİYEV, Musavat.com**

# Abortla bağlı sərt cəzalar



**Azərbaycanda qanunsuz abort etməyə görə cəzalar sərtləşdirilir.**

Musavat.com bildirir ki, yeni qanunvericiliyə əsasən, qanunsuz abort edənləri cərimə ilə yanaşı, onlara azadlıqdan məhrumetmə cəzasının verilməsi də nəzərdə tutulur.

Məsələ Milli Məclisin dünən keçirilən ilcasında müzakirəyə çıxarılan Cinayət Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Mövcud qanunvericiliyə əsasən, həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 6 ayadək müddətə islah işləri ilə cəzalandırılır. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə 1000 manatdan 1 500 manatadək miqdarda cərimə və ya 360 saatdan 400 saatadək müddətə ictimai işlər və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Təklif edilən dəyişikliyə əsasən, həkim tərəfindən tibb müəssisələrindən kənarda və müvafiq ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan az ağır zərər vurulduqda 2 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 1 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 1 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Bu əməli törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad ediləcək.

Qanun layihəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

❑ **E.PAŞASOY, Musavat.com**

# Dişləyərək qulağını qoparıb - Qohumların torpaq davası

**Bərdə rayonu, Mollaisalar kəndində qohumlar arasında baş verən davanın təfərrüatı məlum olub. Dava zamanı tərəflərdən biri digərinin qulağını dişləyərək qoparıb.**

Musavat.com xəbər verir k, 1991-ci il təvəllüdlü Elmir uşaqlıqdan bir yerdə böyüdüyü, qohumu, həm də həmkəndlisi olan Sədini döyüb.

Davaya səbəb ailələr arasında illər əvvəl başlayan torpaq davası olub. Onlar arasındakı dava-dalaş dəfələrlə polis bölməsində bitib. Sonuncu davada isə Elmir Sədiyə ağır xəsarət yetirib.

Elmir qohumu Sədini təklikdə tutaraq onu döyməyə başlayıb. İttihama görə əvvəlcə ağacla Sədini döyüb. Sonra onun sol qulağını dişləyərək qoparıb. Elmirin daha sonra Sədinin paltarlarını soyundurduğu da istintaq tərəfindən müəyyən edilib.

Törətdiyi əmələ görə Elmirə qarşı Cinayət Məcəlləsinin xuliqanlıq niyyəti ilə qəsdən sağlamlığa ağır zərər vurma maddəsi ilə ittiham irəli sürülüb. Lakin məhkəmə bu ittihamın sübuta yetirilmədiyi qənaətinə gəlib. Elmirin bu əməli xuliqanlıq niyyəti ilə törətmədiyi, hadisə zamanı qeyd edilən taxta parçasının aşkar edilməməsi, iş üzrə heç bir şahidin olmaması və zərərçəkmişin dediklərinin sübutlarla təsdiq edilməməsi məhkəmə tərəfindən araşdırılıb.

Məhkəmə həmçinin tərəflər arasında barışıq əldə edilməsini də yüngülləşdirici hal kimi nəzərə alıb.

Buna görə də Elmirin əməli Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsinə tövsif edilərək cəzası yüngülləşdirilib. Bu maddə ilə Elmirə 3 il cəza təyin edilib. Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilməklə azadlığa buraxılıb.

❑ **İ.MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

# "Binokl diplomatiyası"nın özünüifşası - Rusiya Bakıya görə narahatdır?

## Aİ missiyasının regiondakı varlığı Kremlin Cənubi Qafqaz planlarını pozur - İki mütəxəssisdən fərqli mövqe

**Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyası bir müddətdir ki, təkcə Azərbaycanın deyil, artıq Rusiyanın da tənqid hədəfinə çevrilib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Aİ-nin Ermənistandakı missiyası Azərbaycana qarşı casusluq fəaliyyəti həyata keçirir:**

"Moskva Bakının bu missiya ilə bağlı narahatlığını anlayır və bunu tam haqlı hesab edir. Qondarma missiyanın əməkdaşları Ermənistanla sərhəddə yerləşən qonşu ölkələrə casusluq edir. Onlar nə Ermənistan rəhbərliyinə hesabat verirlər, nə də regionun sabitliyinə töhfə verirlər", - deyə Zaxarova bildirib.




Bu ittihamın fonunda bir sıra mühüm suallar aktuallaşır: Rusiya bu çıxışla əslində kimi müdafiə edir - Bakınımı, yoxsa öz geosiyasi maraqlarını? Aİ missiyasının regiondakı varlığı Rusiyanın Cənubi Qafqaz planlarını necə pozur?

Rusiya diplomatiyasının bu çıxışı ilk baxışdan Azərbaycanın maraqları ilə səsləşir. Axı rəsmi Bakı da uzun müddətdir ki, Aİ missiyasının regiondakı casus fəaliyyətindən narazılıq edir. Azərbaycan tərəfi hesab edir ki, missiya Ermənistan ərazisində yerləşsə də, bir növ Bakı üzərində təzyiq vasitəsinə çevrilib.

Lakin Zaxarovanın bəyanatını sadəcə Bakının hüquqlarını müdafiə kimi qiymətləndirmək sadəlövhlük olardı. Çünki Aİ-nin Ermənistandakı missiyası ilk növbədə Rusiyanın Cənubi Qafqazdakı monopoliyasını sarsıdır. Rusiya özünü hələ də bölgədə yeganə "hakim" kimi görmək istəyir. Avropa İttifaqının regionda möhkəmlənməsi isə Kremlin bölgə siyasətinə ciddi alternativ yaradır. Unutmaq olmaz ki, Aİ-nin müşahidə missiyası mülki olsa da, faktiki olaraq Qərbin regionda mövcudluğunun əsas rəmzidir. Rusiya üçün bu, xüsusilə Ermənistanın öz təhlükəsizlik kursunu tədricən Qərbə yönəltməsi fonunda təhlükəli tendensiyadır.

Əgər əvvəllər İrəvan tam şəkildə KTMT-yə və Rusiya ordusunun Ermənistan ərazisindəki bazalarına güvənirdisə, son aylar Paşinyan hökumətinin Qərblə sıx əməkdaşlığı, ABŞ və Fransa ilə hərbi sahədə təmasları, Aİ missiyasına güvəni Moskvanı açıq narazı salıb. Zaxarovanın sərt ritorikasının arxasında da məhz bu geosiyasi yön var.

Azərbaycanla Ermənistan arasında bu ilin martında razılaşdırılmış sülh sənədinin son bəndlərindən biri diqqət çəkir: tərəflər üçüncü qüvvələrin - xüsusilə də hərbi qüvvələrin iki ölkə sərhədində yerləşməsi öhdəliyini qəbul ediblər.

Bu, o deməkdir ki, Aİ missiyasının Ermənistan ərazisində fəaliyyəti, hər nə qədər mülki kimi təqdim olunsa da, Azərbaycan üçün razılaşdırılmış öhdəliklərin pozulması anlamına gəlir. Rəsmi Bakı bu məsələni mütəmadi şəkildə gündəmə gətirir. Zaxarovanın son bəyanatı da bu kontekstdə rəsmi Moskvanın "Azərbaycanın tərəfində dayanmaq" görüntüsü yaratmaq cəhdidir, lakin mahiyyət etibarilə Kremlin öz maraqlarının müdafiəsi və Aİ-nin sıxışdırılması məqsədi daşıyır.

Rusiya və Aİ arasında bu cür açıq ritorik qarşıdurma, əslində, Azərbaycanın diplomatik manevr imkanlarını artırır. Lakin Bakının bu gərginlikdən necə istifadə etməsi onun balanslı xarici siyasət kursundan asılı olacaq.

Azərbaycan Aİ-nin birtərəfli mövqeyinə qarşı haqlı iradlarını bildirərkən, eyni zamanda Rusiya ilə də həddən artıq yaxınlaşmaqdan çəkinməlidir. Çünki regionda yaranan yeni geosiyasi düzən təkcə Qərbin deyil, Rusiyanın da öz maraqları naminə Cənubi Qafqazda dominantlığı bərpa etmək cəhdlərini gücləndirə bilər.

Politoloq Tofiq Abbasov "Yeni Müsavat" qəzetinə açıqlamasında bildirib ki, sərhəddə müşahidə missiyasının casus fəaliyyəti ilə bağlı Azərbaycan və Rusiyanın mövqeləri üst-üstə düşür: "Bəlli məsələdir ki, Avropadan gələn müşahidəçilər casusluqla məşğuldurlar. Əvvəlcədən demişik ki, müşahidə missiyasına regionda heç bir lüzum yoxdur. Ermənistan bu missiyanı Emmanuel Makronun təkidi ilə bölgəyə buraxdı. Nəticədə "binokl diplomatiyası"nın casusları bölgə dövlətlərinə qarşı strateji məlumatlar toplamağa başladılar. Qərb bu məlumatlarla Azərbaycanın, Rusiyanın, İranın və Türkiyənin əleyhinə istifadə edə bilər. Zaxarova da onların idbar niyyətlərini vurğulayıb.

Əlbəttə ki, biz Cənubi Qafqazda həmişə Rusiyanın dominantlığını görmüşük. Buna şərait yaradan isə Ermənistan olurdu. Lakin biz son vaxtlar görürük ki, Ermənistan əzəli müttəfiqini aldatmağa çalışır və onun əvəzinə alternativ tapır. Qərbə inteqrasiya etmək üçün o qüvvəni regiona çağırır. Təbii ki, bu da Rusiyanın ürəyincə deyil. Adətən bu proseslərdə Rusiya həmişə Ermənistanın qarşısında idi, onu arxasınca aparırdı. İndi isə vəziyyət dəyişib, Ermənistan vassal olaraq Qərbin himayəsinə keçmək istəyir. Bu baxımdan Rusiya Ermənistandan hazırda narazıdır və müşahidə missiyasını sərt tənqid edir", -politoloq deyib.

Hüquqşünas Qulamhüseyn Əlibəyli isə bildirib ki, Rusiya ilk növbədə öz maraqlarını müdafiə edir: "Əslində Rusiyanın maraqları Azərbaycanın maraqları ilə o qədər də üst-üstə düşmür. Avropa çalışır ki, Rusiyanı Ermənistandan sıxışdırıb çıxarsın. Mülki missiyanın fəaliyyəti də buna xidmət edir. Mülki nəzarət funksiyasından isə söhbət gedə bilməz. Bunu Azərbaycan rəsmiləri də dəfələrlə bəyan edib. Bu missiya eyni zamanda Rusiyanın maraqlarına ziddir. Çünki onun ordusunun fəaliyyətinə nəzarət edir. Ona görə də bu məsələdə Rusiyanın mövqeyi qismən Azərbaycanla üst-üstə düşdüyü üçün Zaxarova belə çıxışlar edir. Azərbaycan bu məsələdə öz suverenliyinin müdafiəsi üçün fəaliyyət göstərir, Rusiya isə Cənubi Qafqazdan çıxmamaq üçün çalışır. Əks halda Rusiya heç vaxt rəsmi bakının maraqlarını müdafiə etməz. Nəzərə alaq ki, son vaxtlar Rusiya Qarabağdakı keçmiş qondarma rejimlə bağlı aktivləşib. Bu yöndə müəyyən fikirlər səsləndirirlər, revanşist qüvvələrə bu və ya digər formada dəstək göstərirlər. Bu isə onu göstərir ki, Rusiya Azərbaycanı yox, öz maraqlarını müdafiə edir. Missiya məsələsində isə maraqlar qismən üst-üstə düşdüyü üçün Azərbaycanı müdafiə edən tərəf kimi özünü göstərir. Əslində isə burada böyük imperiya, SSRİ-ni bərpası ilə əlaqəli maraqlardan söhbət gedir".

❑ Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"

# Ter-Petrosyan hədəfə alındı: Bir miskinsən!




**Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan öz növbəti paylaşımında Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanı hədəfə alıb.**

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, Akopyan sabiq prezidentin adını çəkməsə də, ünvanın kimə yönəldiyi açıq-aşkar görünür.

"Bilirsinizmi, "Təhsil dəbdədir" hərəkatının ən mühüm məqsədlərindən biri nədir?

Bu hərəkatın əsas məqsədlərindən biri bizim mühitimizi dəyişməkdir.

Elə bir dəyişiklik lazımdır ki, sən güclü zəkaya sahib bir ziyalı olaraq, yalnız sənə açıq olan həqiqətləri anlayan və dövlətinə, xalqına ölçüyəgəlməz xidmət göstərmək iqtidarında olan biri kimi, birdən-birə bir neçə dəyəri bilinməmiş tullantının təhqiri ilə alçaldılmayasan.

Elə bir dəyişiklik lazımdır ki, yetkin yaşına çatmış, tərbiyəsiz, savadsız və öz mənasızlığını dərk etməyə qadir olmayan "böyümüş" gənc tipi məktəbdə yaxşı oxuyan və "skripkada çalan" uşaqlara qarşı üstünlük təşkil etməsin - çünki onlar həmin uşaqlarla lağ edirlər.

Bu tip mütləq savadsız olmalı deyil, məsələn dörd sinifli təhsilə malik biri kimi. O, elmlər doktoru da ola bilər, bir neçə ölü dili də bilə bilər, amma əgər həyatının sonuna yaxın müdriklik zirvəsinə çatmaq əvəzinə, insanların ünvanına istehza və təhqir etmək onun ən güclü tərəfidirmsə, demək, bu şəxs hələ də özünü təsdiqləyə bilməmiş bir miskindir.

Sonra da deyirlər ki, baş nazirin həyat yoldaşı bizi təhqir edir - ay nə qədər ədəbsiz hərəkətdir!

Siz özünüzü kənardan görürsünüzmü? Siz özünüzü eşidirsinizmi? Siz güclüsünüz, deməyə sözüm yoxdur, çox güclüsünüz. Amma o qədər güclüsünüz ki, ancaq skripka çalan uşağa qarşı lağ edən itaətsiz yeniyetmələrlə müqayisə edilə bilərsiniz.

Bəli, siz hələ də bizim mühitə hökm edirsiniz və skripka çalan, yaxşı oxuyan bütün uşaqlar sizdən qorxurlar. Və siz bir-birinizi belə tapmısınız.

Sizə yerinizi göstərəcək sizdən daha tərbiyəsiz biri yoxdur. Bəli, siz birləşmisiniz - yaxşı da etmisiniz",-deyə statusda belə ifadələr yer alıb.

❑ Musavat.com

# Azərbaycana yeni təhdid - İrəvan süni intellekt fabriki yaradır

## Ölkəmizə qarşı ərazi iddialarından əl çəkməyən Ermənistanın bu projesindən narahat olmalıyıqmı? - Xəbərdarlıq

**“Ermənistan qlobal süni intellekt hərəkatına müşahidəçi kimi yox, yeni imkanların yaradıcısı kimi qoşulur. Aylarla davam edən hazırlıq işlərindən sonra Firebird, Ermənistan hökuməti və NVIDIA regionumuzun texnoloji xəritəsini kökündən dəyişdirəcək birgə layihəyə start verir”.**

“Yeni Müsavat” erməni mediasına istinadən xəbər verir ki, bu barədə Ermənistanın yüksək texnologiyalı sənaye naziri Mxitar Ayrapetyan öz Facebook səhifəsində yazıb.

Onun sözlərinə görə, layihə 500 milyon dollar investisiya cəlb edəcək, minlərlə Blackwell GPU-ları yerləşdirəcək və 100 meqavatdan çox gücə malik infrastruktur yaradacaq. Başlanğıc 2026-cı ilə planlaşdırılıb.

“Süni intellekt fabriki innovasiya, təhsil, elm və sahibkarlıq platformasına çevriləcək. Bu, yerli və beynəlxalq startapların inkişafına təkan verəcək, elm və texnologiya arasında əlaqəni təmin edəcək və Ermənistanı regional texnoxaba, süni intellektin yaradılması məkanına çevirəcək. İrəvan bu təşəbbüslə təkcə qlobal texnoloji dəyişikliklərə cavab vermir, eyni zamanda proseslərin iştirakçısına çevrilir. Yerli potensialın beynəlxalq inkişafa uyğun müasir həllər yaratmaq imkanının olacağı yeni platforma formalaşır. Bu, ölkəmizin uzunmüddətli texnoloji tərəqqisi üçün strateji sərmayədir”, - nazir qeyd edib.

Azərbaycan ona qarşı rəsmi ərazi iddiasından hələ də əl çəkməyən Ermənistanın bu iddialı projesindən narahat olmalıdırmı?

Mövzu ilə bağlı “Yeni Müsavat”a şərh verən iqtisadçı Natiq Cəfərli deyib ki, Ermənistanın bu tipli layihələrdə iştirakı hələ ki kağız üzərindədir: “İnvestisiyaların qoyulması, infrastrukturun yaradılması, müəyyən elmi araşdırmaların aparılması illərlə zaman alacaq. Amma təbii ki, Ermənistanın belə bir layihədə yer alması düşündürücüdür. Çünki süni intellekt, yeni texnologiyalar dünyanın gələcəyidir. Azərbaycanın bunun əks addımlarını atmaq üçün kifayət qədər ciddi fürsətləri var. Azərbaycanla iş görmək, yatırım etmək istəyən şirkətlərin sayı heç də az deyil. Ona görə Ermənistanla iş görən şirkətin dünyada onlarla rəqibi var. Azərbaycan da həmin rəqib şirkətlərlə danışıqlara başlayıb, ölkə ərazisində bəlli bir infrastruktur qurulmasına, ona bənzər istehsal sahələrinin yaradılmasına çalışa bilər. Bu zaman Ermənistanla iş quran şirkət beş dəfə düşünəcək ki, bəlkə Azərbaycana daha yaxşı təkliflərlə çıxış etsin. Bu biznesin qızıl qaydasıdır. Azərbaycanın Ermənistan üzərində daha böyük üstünlüyü var, həm maddi, həm də təhlükəsizliklə bağlı üstünlüyümüz var. Əhali bizdə üç dəfə çoxdur. Resurslarımız daha çoxdur. Azərbaycan Ermənistanı bütün parametrlərdə geridə qoya bilər”.

Azərbaycan İnternet Forumun rəhbəri Osman Gündüz də mövzu ilə fikrini bildirib: “Ermənistan süni intellektin inkişafı üçün NVIDIA ilə 500 milyon dollarlıq müqavilə imzalayıb və regionda texnologiya yarışında ciddi bir addım atıb. ”Firebird" adlı süni intellekt bulud şirkəti və Ermənistan hökuməti ABŞ-ın texnoloji nəhəngi NVIDIA ilə strateji əməkdaşlıq mühüm addımdır. Bu əməkdaşlıq çərçivəsində 2026-cı ildə minlərlə NVIDIA Blackwell GPU-ları ilə təchiz olunan və 100 meqavatdan çox gücə malik Süni İntellekt Mərkəzi qurulacaq.



Tərəflər arasında bağlanmış müqavilənin ümumi dəyəri 500 milyon dollar təşkil edir. Müqavilə lisenziya, infrastruktur quruculuğu, qabaqcıl elmi-tədqiqat layihələrinin dəstəklənməsi və beynəlxalq universitetlərlə ortaq təşəbbüsləri əhatə edir. Bu layihənin məqsədi Ermənistanı süni intellekt üzrə qabaqcıl mərkəzə çevirmək, yeni texnologiyalarla yerli iqtisadiyyatı canlandırmaq, innovasiya mühitini gücləndirmək və qlobal bazara çıxış üçün dayanıqlı platforma formalaşdırmaqdır. NVIDIA-nın rəhbəri Jensen Huang, Ermənistanın Baş nazir Nikol Paşinyan və bu ölkədəki ABŞ səfiri layihəni yüksək dəyərləndiriblər. Düşünürəm ki , bütün bunlar Ermənistanın regional rəqabətdə önə çıxmaq cəhdini daha da gücləndirəcək. Onlar bununla da ABŞ-da mövcud baryerləri aşaraq yüksək texnologiyalara birbaşa çıxış imkanı qazanacaqlar. Dünya nəhəngi NVİDİA-nın da iştirakı ilə 500 milyonluq müqavilə ciddi hadisədir. Fikrimcə, Ermənistanın süni intellekt və yüksək hesablama sahəsində qabaqcıl infrastruktur qurması, regionda texnoloji liderlik uğrunda rəqabətdə Azərbaycanın geri qalmasına səbəb ola bilər.

NVIDIA kimi qlobal texnoloji liderlərlə birbaşa əməkdaşlıq qurulması Ermənistana strateji üstünlük verir və beynəlxalq texnologiya şəbəkələrinə daha tez inteqrasiya imkanı yaradır.

Bu təşəbbüs Ermənistanı investorlar, startaplar və beynəlxalq universitetlər üçün daha cəlbedici texnoloji mərkəzə çevirə bilər ki, bu da Azərbaycanın “rəqəmsal regional mərkəz” olmaq iddialarını zəiflədə bilər. Texnologiyalar hesabına büdcəsini artırmaq imkanları əldə edən məğlub ölkədə revanşistlərin mövqeyi daha da gücləndə bilər. Fikrimcə biz süni intellekt strategiyasında nəzərdə tutulanların tez reallaşmasına diqqət yetirməliyik. Hər iki Superkompüter Mərkəzlərini tezliklə istifadəyə verməliyik, süni intellekt sahəsi üzrə kadrların hazırlanmasını gücləndirməliyik. Azərbaycan süni intellekt sahəsində real texnoloji tərəfdaşlarla əməkdaşlıq, yüksək səviyyəli infrastruktur və yerli ekosistemə geniş dəstək sahəsində səyləri çox gücləndirməlidir".

Misal üçün, kənd təsərrüfatı sektoru iqtisadiyyatın mühüm hissəsini təşkil edir. Ənənəvi üsullarla aparılan kənd təsərrüfatı istehsalı, bəzən yüksək resurs xərclərinə və azalan məhsuldarlığa səbəb ola bilər. Burada süni intellektin tətbiqi, məsələn, aqrotexniki məlumatların toplanması və təhlil edilməsi, məhsuldarlığın artırılması, ziyanvericilərin və xəstəliklərin daha sürətli aşkar edilməsi, suvarma sistemlərinin optimallaşdırılması və məhsulun nəzarət altına alınmasında ciddi üstünlüklər yarada bilər. Süni intellekt, kənd təsərrüfatında fərdi tarlaların analizi üçün böyük verilənləri (big data) toplaya və təhlil edə bilər. Məsələn, hava şəraiti, torpaq tərkibi və suvarma şərtləri kimi məlumatlar əsasında süni intellekt sistemləri gələcəkdə məhsulun necə inkişaf edəcəyini proqnozlaşdıra bilər. Bu, fermerlərə resursları daha effektiv şəkildə istifadə etməyə və yüksək məhsuldarlıq əldə etməyə imkan tanıyır.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Separatçılar yeni “namizəd” axtarışında - erməni həyasızlığı

## Revanşistlər son oyunlarını oynayır; Paşinyan onları bitirməkdə qərarlıdırmı...



**Separatçı rejimin sonuncu başçısı Samvel Şahramanyan yenidən “prezidentliyə namizəd” olmaqdan imtina edib. Bu barədə “Hraparak” qəzeti yazıb. Qeyd edilir ki, İrəvanda fəaliyyət göstərən qondarma qurum “prezident seçkiləri” üçün müəyyən edilmiş müddəti qaçırıb, 31 may son tarix idi. Şahramanyanın “səlahiyyət müddəti” mayın 21-də başa çatıb.**

Bundan sonra oyuncaq qurumun “parlamenti” mayın 27-dək “yeni namizəd” irəli sürməli idi, amma nəşrin iddiasına görə, baş nazir Nikol Paşinyan hökuməti buna imkan verməyib. “Hraparak” yazır ki, Şahramanyandan əllərini çəkən separatçılar yeni “namizəd” axtarışında olsalar da, Ermənistan hakimiyyətinin təzyiqi səbəbindən heç kim bu mənasız işin altına girmək istəmir: “Düzdür, separatçılar Şahramanyandan əllərini üzüblər, çünki hökumət ona birbaşa mətnlə ”seçildikdən" 5 il sonra Sünikdə baş verən hər hansı bir prosesin təkcə onun deyil, bütün Qarabağ ermənilərinin çiyinlərində olacağı barədə xəbərdarlıq edib".

Qəzet yazıb ki, Paşinyanın təhdidlərini Şahramanyan və digər separatçılara çatdıran Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyandır.

Xatırladaq ki, Ermənistan parlamentinin sədri Alen Simonyan da daha əvvəl separatçıların İrəvandakı fəaliyyətlərinə etiraz edib. Spiker bu cür fəaliyyətlərə Azərbaycandan adekvat cavabların olduğunu söyləyib.

Bəs separatçı tör-töküntülərin İrəvandakı oyunlarının başa çatdığını əminliklə proqnozlaşdırmaq olarmı?

Qeyd edək ki, bir neçə gün öncə Njde İskəndəryan adlı biri özünü “artsaxın dövlət naziri” elan edib. Bunun davamı olaraq yeni “prezident” də açıqlana bilərmi?

Deputat Günay Ağamalı “Yeni Müsavat”a bildirdi ki, separatçıların bu oyunları artıq nə Ermənistan daxilində, nə də beynəlxalq aləmdə ciddiyə alınır: “Keçmiş qondarma rejiminin sonuncu rəhbəri Samvel Şahramanyanın yenidən namizəd olmaqdan imtina etməsi separatçıların süqutunu daha da sürətləndirən bir hadisədir. Çünki artıq nə Rusiya, nə Qərb dairələri, nə də ki, Ermənistan hakimiyyəti Azərbaycanla danışıqlar kontekstində separatçı ünsürləri oyunçular sırasına daxil edirlər. Azərbaycanın 2023-cü ilin sentyabrında həyata keçirdiyi lokal antiterror əməliyyatları separatçı strukturların hərbi-siyasi dayaqlarını tamamilə çökdürdü. Bunun fonunda, Samvel Şahramanyanın imtinası və əvəzləyici namizədin olmaması artsax adlı mifin tarixin arxivinə getdiyinin göstəricisidir. Məhz bu səbəbdən separatçıların İrəvanda dövlətçilik oyunu oynaması istər Ermənistan daxilində, istərsə də, beynəlxalq müstəvidə ciddiyə alınmır. Bu tip yanaşmalar Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni geosiyasi reallıqlar fonunda ölmüş narrativləri canlandırmaq cəhdidir. Hətta özünü qondarma artsaxın dövlət naziri elan edən Njde İsgəndəryanın fikirləri belə boşboğazlıqdan başqa bir şey deyil. Aydındır ki, qlobal və regional müstəvidə cərəyan edən prosesləri izləyən Ermənistan hakimiyyətinin bir qrup özünə siyasi dayaq formalaşdırmaq istəyən şəxslərə dəstək olmaması başa düşüləndir. Çünki Azərbaycan istənilən separatizm meylinə qarşı çevik, prinsipal cavab vermək iqtidarındadır və bu İrəvan üçün arzuolunmaz nəticələr yarada bilər. Nəticə etibarilə, erməni separatizm ideologiyasının tənəzzülü gücün, hüququn və ədalətin qələbəsidir”.

Politoloq Züriyə Qarayeva tam arxayındır. O düşünür ki, separatçıların İrəvandakı oyunu başa çatmaq üzrədir: “İrəvanda yerləşən və artıq heç bir hüquqi və real statusu olmayan separatçı qrupun qondarma ”seçki" oyunu bir daha göstərir ki, Ermənistan daxilində müxtəlif maraq qrupları hələ də Qarabağ məsələsi üzərindən siyasi bazarlıq etmək və Paşinyanı təzyiq altında saxlamaq istəyirlər. Lakin bu dəfə vəziyyət fərqlidir. Paşinyan hökuməti ilk dəfə açıq şəkildə separatçılarla məsafə saxlayır və onlara dövlət səviyyəsində dəstək verməkdən imtina edir. Üstəlik, Ermənistan parlamentinin sədri Alen Simonyanın da bu fəaliyyətlərə açıq şəkildə etiraz etməsi göstərir ki, artıq İrəvanın əsas siyasi mərkəzlərində “artsax” kartı oynanılmır. Paşinyan administrasiyası başa düşür ki, bu cür oyuncaq strukturların fəaliyyətinə göz yummaq, Azərbaycanla mümkün sülh sazişi öncəsi ciddi zərbə ola bilər”.

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

Yeni MÜSAVAT
N 102 (8712) 14 iyun 2025




# Milli Məclisdə mühüm müzakirələr - qanun layihəsi etiraz doğurdu

## Qanunvericiliyin pozulmasına görə sərt cəzalar gəlir

**İyunun 13-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirildi. Spiker Sahibə Qafarova giriş nitqində bildirdi ki, bizim iclasımız Azərbaycan tarixinin gedişini dəyişmiş bir hadisənin ildönümü, Qurtuluş bayramı ərəfəsində keçirilir: "Bildiyiniz kimi, 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə dünya miqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin ali hakimiyyətə qayıtması Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Ulu Öndərin siyasi iradəsi, qətiyyəti, zamanın çağırışlarına yaradıcı münasibət bildirmək və düzgün qərarlar qəbul etmək qabiliyyəti sayəsində xalqımız müstəqil dövlətini qorumaq və yaşatmaq üçün tarixin verdiyi imkanı reallaşdıra bildi.**

Ümummilli Liderimizin məharətlə və əzmlə xilaskarlıq missiyasını həyata keçirməsi, hüquqi, demokratik və dünyəvi dövlətin möhkəm təməlini yaratması Azərbaycanın tarixinə milli qurtuluş və quruculuq dövrü kimi əbədi həkk olunmuşdur". Spiker qeyd etdi ki, Ulu Öndərin başladığı tarixi missiya bu gün eyni əzm və iradə ilə davam etdirilir: "Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət ölkəmizi keyfiyyətcə yeni inkişaf səviyyəsinə yüksəltmişdir. Azərbaycan dinamik iqtisadi artıma nail olmuş, nəhəng infrastruktur layihələri həyata keçirmiş, ordunu möhkəmləndirmişdir. Bu gün Azərbaycan Respublikası dünyanın geniş bir bölgəsində söz sahibi olan qüdrətli bir dövlətdir. Əminliklə söyləmək olar ki, Heydər Əliyev zəkasından güc almış Azərbaycan dövləti möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıdakı dövrdə yeni böyük uğurlara imza atacaqdır. Mən təklif edirəm ki, Milli Qurtuluş Günü münasibəti ilə dövlət başçısı cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Və Azərbaycan dövlətinin bu gününə və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq".

Deputatlar spikerin təklifinə alqışlarla dəstək ifadə etdilər.

S.Qafarova daha sonra Milli Məclis sədrinin başçılığı ilə nümayəndə heyəti iyunun 11-də və 12-də Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində işgüzar səfərdə olması ilə bağlı məlumat verdi, keçirdiyi görüşlər, iştirak etdiyi tədbirlərlə bağlı danışdı. Bildirdi ki, səfərdə məqsəd Türk Dövlətləri Parlament Assambleyasının Şura iclasında və 14-cü plenar iclasında iştirak etmək idi.

Gündəlikdəki məsələlərin müzakirəsinə keçildi. İlk olaraq "Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi müzakirəyə çıxarıldı.

Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev layihə barədə məlumat verdi. Sənədin təsdiqlənməsi Türk Dövlətləri Təşkilatının mülki müdafiə mexanizminin təsis edilməsinə imkan yaradacaq. Qanun layihəsi səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılaraq təsdiqləndi. İclasda iştirak edən maliyyə naziri Sahil Babayev deputatların qaldırdığı məsələlərə münasibət bildirdi.

Qanunsuz süni mayalanma və embrionu implantasiya etmə, tibbi sterilizasiyaya görə cəzalar sərtləşdirilir. İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsində belə bir cəza öz əksini tapıb. Mövcud qanunvericiliyə əsasən, qadına, onun razılığı olmadan və ya yetkinlik yaşına çatmayan qadına süni mayalanma və ya embrionu implantasiya etmə və şəxsin razılığı olmadan onun üzərində tibbi sterilizasiya, yəni şəxsin nəsilartırma qabiliyyətindən məhrum edilməsi, yaxud qadının hamiləlikdən qorunması məqsədi ilə əməliyyat aparma əməlləri ehtiyatsızlıqdan şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda 2 ilədək müddətə islah işləri və ya 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 2 ildən 4 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Təklif edilən dəyişikliyə əsasən, yuxarıdakı əməllər ehtiyatsızlıqdan şəxsin sağlamlığına ağır və ya az ağır zərər vurulmasına səbəb olduqda 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 2 ildən 4 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ildən 4 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq.

Qanun layihəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Azərbaycanda qanunsuz abort etməyə görə də cəzalar sərtləşdirilir. Yeni qanunvericiliyə əsasən, qanunsuz abort edənləri cərimə ilə yanaşı, onlara azadlıqdan məhrumetmə cəzasının verilməsi də nəzərdə tutulur. Bu, Cinayət Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb. Mövcud qanunvericiliyə əsasən, həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 6 ayadək müddətə islah işləri ilə cəzalandırılır. Xüsusi ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə 1000 manatdan 1 500 manatadək miqdarda cərimə və ya 360 saatdan 400 saatadək müddətə ictimai işlər və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır. Təklif edilən dəyişikliyə əsasən, həkim tərəfindən tibb müəssisələrindən kənarda və müvafiq ali tibbi təhsili olmayan şəxs tərəfindən abort etmə nəticəsində zərərçəkmiş şəxsin sağlamlığına ehtiyatsızlıqdan az ağır zərər vurulduqda 2 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 1 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 1 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılacaq. Bu əməli törətmiş şəxs zərərçəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı tamamilə ödədikdə cinayət məsuliyyətindən azad ediləcək.

Qanun layihəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Əhalinin bank kartı hesablarından pul vəsaitlərinin talanması halları ilə bağlı istintaq hərəkətləri təxirəsalınmadan aparılacaq. Bu məsələ Cinayət-Prosessual Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsində öz əksini tapıb.

Bildirildi ki, dəyişikliklər son dövrlərdə müasir informasiya texnologiyalarından istifadə olunmaqla əhalinin bank kartı hesablarından pul vəsaitlərinin talanması hallarında bu cinayətlərin təqibinin operativliyinin təmin etmək məqsədilə təklif edilir. Mövcud qanunvericiliyə əsasən, maliyyə əməliyyatları, bank hesablarının vəziyyəti və vergilərin ödənilməsi barədə məlumatlar daxil olmaqla, şəxsi, ailə, dövlət, kommersiya və ya peşə sirrini təşkil edən məlumatların ələ keçirilməsi növündə istintaq hərəkəti, müstəntiqin əsaslandırılmış vəsatəti ilə razı olan ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında yalnız məhkəmənin qərarı əsasında həyata keçirilir.

Təklif edilən dəyişikliyə əsasən, bu istintaq hərəkətinin təxirəsalınmadan aparılması zəruri olduğu hallarda müstəntiq tərəfindən belə zərurətin əsaslandırıldığı vəsatətə o məhkəməyə daxil olduqdan sonra 24 saat müddətində baxılacaq.

Qanun layihəsi səsverməyə qoyularaq üçüncü oxunuşda qəbul edildi.

Bundan sonra Azərbaycan Respublikası Prezident Administrasiyasının şöbə və ya ona bərabər tutulan digər struktur bölmə rəhbərinin müavinləri diplomatik pasport ələ edə biləcək. Bu məsələ iclasda müzakirəyə çıxarılan "Pasportlar haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq III oxunuşda təsdiq edildi.

İclasda "Qaz təchizatı haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı. Layihə barədə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verdi.

Müzakirələrdə çıxış edən deputat Razi Nurullayev bildirdi ki, layihədə xeyli maraqlı və əhəmiyyətli maddələr var: "Ümumi götürsək, görünən budur ki, əsasən kasıb təbəqəyə o qədər də təsir etməyəcək. Amma, məsələ kasıbçılıq və varlılıqda deyil, qanunun ədalətli olmasındadır. Vətəndaş qaz çəkilişi zamanı, mənzilə və evlərə çəkiliş haqqını ödəyir və sayqaca görə də ödəniş edir. Ödəniş də xeyli böyük rəqəmdir. İndi onlar sabit tarif də ödəməlidir". R.Nurullayev layihədən narazılığını ardınca bu şəkildə ifadə edib: "Yeni istəyirsən qazı işlət, ya da işlətmə, aylıq müəyyən edilmiş məbləği ödəməlisən. Bu, mənə ədalətli yanaşma kimi görünmür. Bilmək istəyirəm ki, bu məsələ hansı təcrübədən yaranıb? Biz bu təcrübəni hansı qonşu ölkələrdən əxz etmişik? Rusiyada, Gürcüstanda, Türkiyədə, İranda və digər yaxın ölkələrdə bu praktika varmı? Bu qanunu tələsik qəbul etməyək, ciddi müzakirə aparaq, istehlakçıların müzakirəsinə çıxaraq".

Deputat Əli Məsimli parlamentdəki müzakirələrdə "Qaz təchizatı haqqında" yeni qanun layihəsinə tənqidi yanaşdı. Bildirdi ki, rüsumlar, yaxud cərimələrlə dövlət büdcəsini doldurmaq mümkün olmadığı kimi, "Azəriqaz" İstehsalat Birliyi və "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti də bununla xərcləri aradan qaldıra bilməyəcək. Ardınca o, suallarla qanunvericilik təşəbbüsü qaldıranlara müraciət edib: "Hansı ölkədə istilik, qazla bağlı bu dərəcə inhisarlaşmış şəraitdə bu üsullardan istifadə olunur? Buradan belə məntiq çıxır ki, bu, indi olmasa da, növbəti mərhələdə qiymətlərin artmasına gətirib çıxaracaq. Hansı ölkələrdə bizdəki kimi keyfiyyətdə problem olanda təklif olunan üsuldan istifadə olunur? Suallar çoxdur. Rüsumlarla, cərimələrlə büdcəni doldurmaq mümkün olmadığı kimi, belə şeylərlə "Azəriqaz" və "Azərenerj"in xərclərini tamamlamaq mümkün olmayacaq. Bu yenilik qəbul olunandan sonra onun maliyyə tutumu nə qədər olacaq?" Ə.Məsimli bölgələrdəki narahatlıqlara da diqqəti çatdırıb: "Dağ yerlərində insanlar qazın pulunu verə bilməyəndə, qazı bağlayırlar, oduna keçirlər. Odun da baha olduğundan həyətlərindəki ağacları kəsirlər. Məntiq haradadır ki, qazın pulunu ödəyə bilməyib qazı bağlayır, odun ala bilmir, həyətindəki ağacı kəsir və əlavə olaraq ona deyəsən ki, işlətmədiyin qaza görə pul ödəməlisən? Mən burada heç bir məntiq görmürəm. Hesab edirəm ki, bunun arxasında o durur ki, neftin qiyməti düşəndə gəlirlərimiz də azalacaq, həmin "Azəriqaz", "Azerenerji" kimi qurumlara dövlət dəstək verə bilməyəcək. Bu, optimal üsul deyil. Optimal üsul həmin sahələrdə islahatlara getməkdir".

Spiker Sahibə Qafarova deputatların fikirlərinə reaksiyasında məsələ ilə bağlı işçi qaydasında müzakirələrin aparılmasını, ehtiyac olarsa, ictimai dinləmələrin keçirilməsini tapşırdı. O vaxta kimi isə qanun layihəsinin ikinci oxunuşda müzakirəyə çıxarılması təxirə salınır.

Qeyd edək ki, ilk oxunuşda deputatların 7 nəfəri qanun layihəsinin əleyhinə səs verdi.

❑ **Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

# Moskvanın Bakı ilə İrəvandan israrı

## Rusiya hələ də vasitəçiliyə ümidlidir - ekspertlər Kremlin əsas hədəflərini açıqladı

**“Moskva Cənubi Qafqazda sülhü dəstəkləyir və Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına kömək etməyə hazırdır”. Baku TV xəbər verir ki, bunu Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov deyib.**

Diplomat ardınca bildirib: “Rusiya üçün Cənubi Qafqazda sülhün olması çox vacibdir. İlham Əliyevin müdrikliyi və onun Vladimir Putinlə münasibətləri sayəsində indi bu sülh bərpa olunub”.

Səfirin sözlərinə görə, Moskva Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin mətni üzrə əldə edilmiş razılaşmanı alqışlayır və ölkələr arasında normallaşma prosesinin davam etdirilməsində maraqlıdır. Yevdokimov qeyd edib ki, Rusiya Azərbaycan və Ermənistan arasında nəqliyyat marşrutlarının inkişafı və sərhədlərin delimitasiyasının davam etdirilməsi üçün bütün səyləri icra etməyə hazırdır.

O vurğulayıb ki, Bakı və Moskva arasında münasibətlər aktiv inkişaf edir və iki ölkə prezidentinin ötən il 4 dəfə görüşməsi bunu isbatlayır. Putin Azərbaycana dövlət səfəri edib, baş nazirlər 3 görüş keçirib, Şahin Mustafayev və Aleksey Overçukun timsalında baş nazir müavinlərinin təmasları olub.

Diplomat əlavə edib ki, Rusiya və Azərbaycanın müttəfiqlik münasibətlərinin inkişafı üçün böyük potensialı var. O, növbəti dəfə vasitəçilik missiyasını yada salıb. Rusiya XİN sözçüsü Mariya Zaxarova və digər rəsmilər də vaxtaşırı dilə gətirirlər ki, Moskva danışıqlarda moderator olmağa hazırdır. Lakin heç bir tərəf Rusiyanın bu təşəbbüslərini dəstəkləmir. Çünki ikitərəfli modeldə danışıqlar davam edir.

Yeri gəlmişkən, yaxın vaxtlarda Ermənistanla Azərbaycan arasında ərazi mübadiləsinin olacağı ilə bağlı məlumat yayılmışdı. “Hraparak” nəşrinin iddiasında bildirilirdi ki, Ermənistan tezliklə öz ərazisinin təxminən 180 kvadrat kilometrini Azərbaycana verəcək və bunun müqabilində cəmi 25 kvadrat kilometr ərazini alacaq. Bildirilir ki, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla Azərbaycan Prezidentinin Xarici Əlaqələr üzrə köməkçisi Hikmət Hacıyev arasında sərhədlərin delimitasiyası məsələləri ilə bağlı danışıqlar aparılıb. Tərəflər Ermənistan-Azərbaycan sərhədinin yeni keçidi ilə bağlı razılığa gəliblər.

Əgər bu səviyyədə təmaslar və razılaşmalar varsa, Rusiyanın iştirakına nə hacət?

Siyasi şərhçi Aydın Quliyev “Yeni Müsavat”a bildirdi ki, Cənubi Qafqaz dövlətləri bir-biri ilə ikitərəfli müstəvidə müxtəlif əlaqələrə, əməkdaşlıq münasibətlərinə malikdir: “Bu nöqteyi-nəzərdən Azərbaycanın Rusiya ilə ayrıca ikitərəfli münasibətlər gündəmi var, Ermənistanla ayrıca təmasları mövcuddur. Eyni zamanda, Rusiyanın Ermənistanla ayrıca təmasları var, İranın Rusiya ilə, İranın Ermənistanla başqa cür əlaqələri mövcuddur. Amma bəzi məsələlər var ki, bu məsələlər ikitərəfli müstəvidə yox, ən azı üçtərəfli müstəvidə, məsələn, Rusiya-Azərbaycan-Ermənistan münasibətləri müstəvisində nəzərdən keçirilməli məsələlərdir. Bu baxımdan ən maraqlı proseslər Azərbaycan, Rusiya və Ermənistan üçbucağında cərəyan edir. Bu üçbucağın çevrəsində aktual məsələlərin demək olar ki, hamısı bu gün Rusiyanın iştirakı olmadan, yaxud ən zəif iştirakı şərti ilə gedir. Azərbaycanla Ermənistan arasında ikitərəfli dialoq bu və digər templə davam edir. Demək olar ki, Azərbaycan və Ermənistan arasında kommunikasiyaların açılması məsələsindən başqa bütün digər məsələlərdə Rusiyanın iştirakı yoxdur. Sərhədlərin delimitasiyası ilə bağlı proses Azərbaycan-Ermənistan ikitərəfli formatında gedir. Sülh sazişinin mətninin razılaşdırılması üzrə proses Azərbaycan-Ermənistan ikitərəfli formatında aparılır. Humanitar məsələlərlə bağlı, yəni əsirlərin, meyitlərin dəyişdirilməsi ilə bağlı danışıqlar da Azərbaycan-Ermənistan ikitərəfli müstəvisində gedib”.



A.Quliyev hesab edir ki, belə şəraitdə Rusiyanın Azərbaycan-Ermənistan ikitərəfli formatına müdaxilə cəhdləri əslində başa düşüləndir: “O mənada ki, Rusiya mövqelərini itirmək istəmir. Rusiya yaxşı başa düşür ki, əgər sərhədlər Rusiyasız delimitasiya olunarsa, sülh sazişi də Rusiyasız imzalanarsa bu Cənubi Qafqaz bölgəsində Rusiyanın mövcudluğunun 80-90 faiz sıxışdırılıb çıxarılması və məhdudlaşdırılması demək olacaq. Ona görə də Rusiyanın Azərbaycana və Ermənistana gələn bütün səviyyələrdə dövlət məmurları bu mövzuya vurğu edirlər ki, Rusiya Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında, sülh sazişinin imzalanmasında öz potensialını ortaya qoymağa hazırdır”.

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov isə bildirdi ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması perspektivləri çoxaldıqca ayrı-ayrı geosiyasi aktorlar burada öz maraqlarını təmin etməyə çalışırlar: “Sanki bir vasitəçilik yarışı özünü göstərir. Vətən müharibəsindən sonra vasitəçilik uğrunda gərgin mübarizə gedirdi və sonda gördük ki, yaranan müxtəlif danışıqlar formatları özünü doğrultmadı. Yekun nəticə əldə etmək mümkün olmadı və sülh müqaviləsinin imzalanması məsələsi bu gün də açıq qalmaqdadır. Eyni zamanda, Bakı ilə İrəvan arasında birbaşa dialoqun, təmasların olması yaxşı nəticələr verdi. Bugünkü durumda istər İranın, istər Avropa İttifaqının, istərsə də Rusiyanın vasitəçiliklə bağlı olan çağırışları aktual deyil. Rusiya çox çalışır ki, burada öz mediatorluq funksiyalarını yerinə yetirsin. Lakin bu məsələlər düşünürəm ki, artıq keçmişdə qalıb. Bu gün birbaşa dialoqun nəticələri daha çox maraq doğurur”.

Ekspertin sözlərinə görə, həmçinin Bakıda və İrəvanda yaxşı anlayırlar ki, hər bir vasitəçi öz maraqlarını regiona sırımağa çalışır: “Azərbaycan və Ermənistan bu regionun dövlətləri kimi öz gələcəklərini özləri müəyyən edə bilərlər. Bu xüsusda heç bir vasitəçiyə ehtiyac hiss olunmur. Ona görə də Rusiya bu çağırışları etmək əvəzinə sadəcə olaraq Azərbaycanla Ermənistan arasında sülhün əldə edilməsi prosesinə mane olmamalıdır. Bu, Rusiyanın sülhə ən yaxşı töhfəsi olar”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Paşinyanın “siçan-pişik” oyunu - səbrimizi sınağa çəkir

## Erməni baş nazir səmimidirsə, kilsəyə qarşı mübarizəsini “artsax ofisi”nə də adekvat şəkildə başlamalıdır

**2025-ci ilin yarısı bitmək üzrədir. Bu il Azərbaycan-Ermənistan barışığı yönündə yeganə müsbət hadisə hələ ki, mart ayında sülh sənədi mətninin tam razılaşdırılması sayılır. Təəssüf ki, daha da qabağa gedib iki qonşu xalq arasında düşmənçilik səhifəsini çevirmək, iqtisadi-ticari əlaqələrin və diplomatik münasibətlərin qurulmasını yaxınlaşdırmaq mümkün olmayıb.**



Səbəb məlum: erməni tərəfinin qeyri-konstruktivliyi, davam edən söz oyunu və sülh oyunbazlığı, sənədin imzalanması üçün Bakının iki məlum şərtini təmin etməyə tələsməməsidir. Bu azmış kimi İrəvanda “artsax” tamaşası davam edir. Həm də Nikol və komandasının seyrçi münasibəti fonunda.

Qeyd edək ki, separatçıların Qarabağda qurduğu xunta rejiminin sonuncu “rəhbəri” Samvel Şahramanyanın mayın 21-də “səlahiyyətləri” bitəndən sonra özlərinə yeni “lider” seçməsələr də uydurma “artsax parlamenti”nə təzə “sədr” seçiblər. İki gün öncə isə separatçı ünsürlər üstəlik, sanki paralel dünyada yaşayırmışlar kimi, Njde İskəndəryan ad-soyadlı zatı “artsax”ın yeni “dövlət katibi” təyin ediblər.

Bəs ərazi bütövlüyümüzə qarşı bu kimi demarşlara sülhpərvər və “real Ermənistan” tərəfdarı Paşinyan niyə sərt reaksiya vermir? Separatçı ünsürlərin ipini niyə yığmır? Nədən hələ də Minsk Qrupunun rəsmən buraxılmasının sülh müqaviləsinin imzalanması ilə əlaqələndirir? İrəvanın sülh bəyanatlarının səmimiliyinə inanmaq mümkündürmü? Paşinyan doğrudanmı Azərbaycan və Türkiyə ilə barışıq xətti tutub?

Bu mövzuda deputat Aydın Hüseynov “Yeni Müsavat”a bildirdi ki, rəsmi İrəvan Azərbaycan və Türkiyə ilə barışıq xətti tutduğunun səmimi olub-olmadığını bir neçə addımla təsdiqləməlidir: “Nikol Paşinyan və Ermənistan hakimiyyətinin bir sıra yüksək vəzifəli şəxsləri az qala hər gün sülh sazişinə hazır olduqlarından danışırlar. Ancaq sülh sazişinin imzalanmasına maneələrin aradan qaldırılması üçün addım atmırlar. Sülh sazişinin imzalanmasına, Azərbaycan və Türkiyə ilə barışın yaranmasına, əlaqələrin qurulmasına bir nömrəli əngəl Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı ərazi iddiasının olmasıdır. Həmçinin Ermənistanın ana qanununda, dövlət gerbində Türkiyəyə də qarşı ərazi iddiası əksini tapır. Bakı dəfələrlə bəyan və tələb edib ki, Ermənistan bunları aradan qaldırsın. Ancaq İrəvan hələ də bu məsələni həll etməyib və vaxtı uzatmaqda davam edir”.

Deputat qeyd etdi ki, Paşinyan ATƏT-in Minsk Qrupunun ləğvi üçün Azərbaycanla birlikdə rəsmi müraciət etməyi də qəsdən yubadır. “Bu məsələ barədə verdiyi açıqlamalarda da qeyri-səmimi olduğunu ortaya qoyur. Bundan başqa, 10 noyabr üçtərəfli bəyanatda üzərinə götürdüyü öhdəliyi - Zəngəzur dəhlizinin açılması məsələsini də Ermənistan rəhbəri yerinə yetirmir. Azərbaycan və Türkiyə ilə əlaqələrin qurulmasına, sülhə manelərdən biri də budur”,_ deyə deputat vurğuladı.

Onun fikrincə, Paşinyan Qarabağdan köçmüş quldur dəstəsinin İrəvanda yuva qurmasına faktiki olaraq şərait yaradır. Deputat onu da qeyd etdi ki, həmin cinayətkar quldur dəstəsi Azərbaycanın ərazi bütövlüyünə qarşı bəyanatlar verir, müxtəlif qondarma tədbirlər keçirirlər, “seçki” tamaşaları qururlar: “Onlar bu anti-Azərbaycan fəaliyyəti Paşinyanın gözünün qarşısında İrəvanda qurduqları və ”artsax respublikasının nümayəndəliyi" adlandırdıqları ofisdə həyata keçirirlər. Hətta hərdən bir daha da irəli gedərək kütləvi aksiyalar təşkil edirlər. Azərbaycanla sülhə hazır olmaqdan danışan Paşinyan və onun yaxın ətrafı isə həmin tör-töküntülərə qarşı tədbir görmürlər, əksinə, onlara fəaliyyət imkanı yaradırlar. Məqsədlərdən biri Azərbaycan guya öz aləmlərində təzyiq göstərmək, digər məqsəd isə “artsax dəstək” adı altında xaricdən, erməni diasporundan maliyyə yardımı qoparmaqdır. Paşinyan kilsə ilə mübarizə apardığı kimi Qarabağdan Ermənistana köçən və orada “artsax” oyununa davam edən və son vaxtlar fəallaşan separatçılara qarşı da aparmalıdır. Nə qədər ki, həmin quldur dəstəsinə İrəvanda fəaliyyət göstərmələri üçün şərait yaradılır və onlara qarşı heç bir tədbir görülmür, Paşinyanın guya sülh sazişi imzalamağa, Azərbaycanla əlaqələr qurmağa hazır olduğu barədə dediklərinin səmimiliyinə inanmaq mümkün deyil".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025



# Dəhlizin nəzarətçisi

Zamin HACI
zaminhaci@gmail.com

**Müsəlman camaatının inkişafdan qalmağında dini ayinlərə aludəçiliyin böyük rolu vardır. Gündə neçə dəfə namaz qılırsan, ilin bir ayı getdi məhərrəmliyə, bir ay orucluğa, o biri aylar da hərəsi hansısa müqəddəsin rəhmətə getməsi münasibətiylə yas saxlanılır. Həcc ziyarəti, pirlərə nəzir, üç-yeddi-qırx-il mərasimləri, cümə axşamı və sairə və ilaxır. Dünya işlərinə yazıqların vaxtı qalmır ki. Sənin başın o biri dünyanın qazanmağa qarışdığı zaman bir də görürsən hardansa raket uçdu, gəldi, generallar qarışıq hamı cənnətməkan oldu.**

Dünən günorta bir qahımla söhbətləşirdik, dedi görəsən İranın İsrailə göndərdiyi dronlar mənzilə çatdımı. Təsəvvür elə. Gecə saat 3-də səni bombalayırlar, milli "nəcməddinsadıxovun" qarışıq, neçə general və nüvə alimi ölür, cavab üçün uçan dronlar isə 12 saatdır yoldadır. Elə bil Bakıdan Ağstafaya qatarla qurut göndərirsən. (İndi kənd təsərrüfatımız inkişaf elədiyi üçün bu cür proseslər tərsinə dövran edir).

Sabir çox böyük adam olub, biz onun qədir-qiymətini hələ anlamırıq. Gör adam nə qədər dəqiq yazıb: "Ağladıqca kişi qeyrətsiz olur, Necə ki, ağladı İran oldu".

O cür qədim tarixi, mədəniyyəti olan bölgə yüz illərdir bir qrup din tüccarının əlində əsir-yesir vəziyyətdədir. Nə özləri xoşbəxt olur, nə başqalarını adam kimi yaşamağa qoyurlar.

Məsələn, indi çoxumuza elə gəlir ki, İran günahsız qurbandır. Ancaq bütün Orta Doğuda saysız-hesabsız qanlı işlərin arxasından, xaosun və terrorun içindən iranlı instruktorlar, generallar, mollalar çıxanda niyə bunun bir cavabı olacağını fikirləşmirdilər? "İslam inqilabını ixrac etmək" dövlətin rəsmi məqsədi, məramıdır. Ta kimsə bu ideologiyanı istəyir, istəmir, mollaların vecinə deyil.

Rusiya Ukraynaya terrora başlayanda ona ilk dəstək verən, əl uzadan kim oldu? Ay sağ ol: İran. "Şahed" dronlarını dinc Ukrayna uşaqlarının başına yağdıran dünən öldürülən iranlı generallar deyildimi? Öz ölkəsini qorumaq, öz xalqını müdafiə etmək yerinə dünyanın hər yerində nifaq, qırğın axtarırlar. Bu da təbiətdə sınaqdan çıxmış qaydadır: başqasına quyu qazan özü düşür.

Bir maraqlı qanunauyğunluq, tendensiya da müşahidə edilməkdədir. Kim Ermənistanı, onun başqa xalqlara qarşı iddialarını dəstəkləyibsə, mütləq əvvəl-axır zibilə düşübdür. Baxın, Qafqazda Ermənistanın ən yaxın müttəfiqi Rusiya idi. Rusiya bundan nə qazandı? Heç nə. Yalnız ümumqafqaz nifrəti. Bugünlərdə İrəvanda Rusiya səfirliyi önündə "Putin-faşist" qışqıran mitinqçiləri görəndə, nə gizlədim, gülməyim tutdu. Rusiyanın erməni aşiqliyi tək Qafqazdakı iflasıyla bitmədi. 4 ildir Ukraynada sonu bilinməz savaş bataqlığında batırlar.

Ermənistanın digər müttəfiqləri Qərbdə Fransa və ABŞ idi. (Lap hesab edək erməni lobbisi hesabına). Bunlar da son illər görünməmiş qarğaşa, böhranlar, toqquşmalar yaşayır, dinclik tapmır. O cümlədən Fransa Afrikanı, ABŞ Avropanı itirməkdədir.

İranın bir çox məmurları ən yüksək səviyyədə, tutuquşu kimi təkrar etməyi sevirdilər, deyirdilər Zəngəzur dəhlizini açmağa Azərbaycan və Türkiyəyə imkan verməyəcəyik, bu bizim zonadır, maraqlarımız var, Ermənistan bizim qərdeşimizdir və sairə. Xub, ağa. Ancaq, sən hələ get Tehranda generalın yataq otağını qoru, sonra hansısa dəhlizə də baxarsan.



# Bakıya "dostcasına" təzyiq - AŞ ünvanı yenə səhv saldı

## Avropa Şurasının Baş katibi nədən Ermənistana deyil, Azərbaycana diplomatik basqının zəruriliyinə işarə edir?

> **"Bu mövzu bizi çoxdan maraqlandırır. Mən Baş nazir Paşinyanla hələ çox əvvəl - Ermənistanın sazişin şərtlərini qəbul etdiyi vaxtdan danışmışam.**

Həmçinin fürsətim olub Azərbaycan hakimiyyəti ilə də bu barədə danışam - onlara bildirmişəm ki, biz bu məsələ ilə bağlı irəliləmək istəyirik, siz də maraqlısınız ki, aydınlıq və sabitlik olsun və Ermənistan bu istiqamətdə olduqca vacib bir addım atıb". "Yeni Müsavat" bildirir ki, bu sözləri Avropa Şurasının Baş katibi Alen Berse Ermənistan və Azərbaycan arasında mümkün sülh sənədi haqda danışarkən bildirib.

"Avropa Şurası bu qərarın reallaşmasını necə təmin edə bilər" sualına cavab olaraq Berse bildirib ki, məsələ onların diqqətindədir: "Düşünürəm ki, Avropa Şurası bu mövzularda dialoq platforması təklif etməklə də rol oynayır. Məsələn, az öncə Türkiyədə idim, burada da bu məsələ Ermənistanın qonşusu olaraq, gündəmdə idi. Türkiyədə də sülh sazişinin tez bir zamanda imzalanmasının vacibliyindən danışdım. Risklərdən biri odur ki, bu müzakirə Cənubi Qafqazda çox vacib olsa da, dünyada bir qədər unudula bilər. Məqsədimiz məsələnin əhəmiyyətini xatırlatmaq, müzakirələri davam etdirmək və nəhayət, bir son nöqtəyə çatmaqdır - əgər belə demək mümkündürsə, Azərbaycana dostcasına təzyiq göstərməklə".

O qeyd edib ki, proses yavaş getsə də, irəliləyiş var. "Son aylarda kifayət qədər irəliləyiş əldə olunub. Hazırkı problemimiz prosesin çox yavaş getməsidir, lakin hər halda irəliləyiş var. Əgər hər şey tamamilə dayansaydı, bu məni narahat edərdi. Yəni bu hərəkəti saxlamaq lazımdır ki, hər şey imzalanmaya doğru getsin - ümid edirəm, bu mümkün qədər tez baş verəcək", - deyə Avropa Şurasının baş katibi əlavə edib.

Ancaq sülh müqaviləsinin imzalanmasına əsas əngəl məlum: İrəvan Bakının iki legitim şərtini (Minsk Qrupu və konstitusiya dəyişikliyi) yerinə yetirməlidir. Yəni Azərbaycandan asılı heç nə yox. O zaman Avropa Şurasının Baş katibi nədən İrəvana deyil, Bakıya təzyiqin zəruriliyinə işarə edir?

"Avropa Şurasının Baş katibindən bundan artığını gözləməyə dəyməzdi. O qurumun ki Parlament Assembleyası səsvermə hüququmuzu əlimizdən alıb və bunu ermənilərin guya hüquqlarının pozulması, Qarabağa "hücum"la əlaqələndirib. Belə bir təşkilatın Baş katibi də Azərbaycana təzyiq göstərməyə çağıra bilərdi". Bu sözləri "Yeni Müsavat"a Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə deyib. Onun sözlərinə görə, AŞ katibi öz aləmində əl yeri qoymağa çalışıb, dostcasına təzyiqdən dəm vurub, lakin qərəzə yol verib: "Belə çıxır ki, Ermənistan sülhə hazırdır, Azərbaycan yox. Halbuki belə bir saxta rəyi Paşinyan yaradıb. Ermənistana deyən yoxdur ki, məlum iki tələbi niyə yerinə yetirmirsən? O baş katib nə üçün Paşinyana bildirməyib ki, bir neçə gün əvvəl Qarabağı "itirilmiş vətən" adlandırmışdın, bəs ərazi iddian varsa, necə sülhpərvər ola bilərsən? Sadəcə, Qərb təşkilatları İrəvana qahmar çıxır. Məqsəd də Paşinyanı xilas edəcək yarımçıq bir sənəd imzalanmasıdır. Ona görə belə bir tələ qurulub. Hərçənd dünənə qədər də Ermənistanı işğalçı siyasətinə görə də ittiham etmirdilər. İndi işğalçını sülhpərvər göstərməyə başlayıblar. Biz torpaqları azad edəndə də günahkar olurduq, separatizmi məhv edəndə də erməniləri blokadada saxlamaqda günahlandırırdılar... Belə demək mümkünsə, biz Qərbin qərəzli mövqeyinə adət etmişik. Onlar işğalçını hər bir situasiyada müdafiə edirlər. Bu gün də yeni şərait var, ona uyğun şəkildə Ermənistana sahib çıxırlar".

Ç. Qənizadə AŞ Baş katibinin nə deməsindən asılı olmayaraq, Azərbaycanın öz sülh gündəliyinə sadiq qalmasını vacib sayır: "Biz tələblərimizi yerinə yetirilənə qədər səsləndirəcəyik. Çünki yekun sənəd Paşinyanla və onun Qərbdəki tərəfdaşları ilə imzalanmır. Bu müqavilə tarixi və hüquqi əhəmiyyət daşıyacaq, Azərbaycanla Ermənistan arasında imzalanacaq. Ona görə də ədalətli və haqlı yolumuza davam edəcəyik. Ermənistan hakimiyyəti möhkəm sıxıntı altındadır, hansısa yarımçıq sənədlə xilas olmaq istəyir. Əgər Paşinyan xilas yolunu görə biləcək siyasi xadimdirsə, Bakı və Ankaranın sözünü eşitməlidir".

Hüquq müdafiəçisi Xəzər Teyyublu isə qeyd edib ki, Ermənistana deyil, Azərbaycana təzyiq çağırışı AŞ-nin qərəzindən irəli gəlir: "Belə rəy yaranır ki, sülh istəməyən tərəf Bakıdır. Bu, kökündən yanlış təqdimat və qara piardır. Əslində, Azərbaycan haqlı tələblər səsləndirir. İndiki şərtlərlə sülh müqaviləsinin imzalanması, gələcəkdə bizə yeni problemlər yarada bilər. Paşinyandan sonrakı hökumət Ermənistan Konstitusiyasına istinad edərək prosesi hər an poza bilər. Azərbaycan bunu bildiyi üçün mükəmməl yekun sənəd tələb edir. Avropa Şurasının Baş katibi isə elə fikirləşir ki, İrəvan sülhə hazırdır, guya Bakı yox".

Hüquq müdafiəçisinin sözlərinə görə, AŞ Baş katibinin çıxışı ilə Azərbaycana təzyiq göstərmək mümkün deyil: "Bu qurum özünü hörmətdən və nüfuzdan salıb. Avropa Şurası hansı təsir rıçaqlarına malikdir ki, bizə basqı etsin? Biz sülh mövzusuna reaksiya verən daha böyük güc mərkəzlərinə diqqət yetirməliyik. 2001-ci ildə sözügedən təşkilata üzv olandan sonrakı dövrün təcrübəsi göstərir ki, ermənipərəst qüvvələr bu təşkilatdan daim Azərbaycana qarşı istifadə ediblər. Avropa Şurası müxtəlif Avropa ölkələrinin Avropa parlamentinə düşə bilməyən islamafob və türkəfob təfəkkürlü nümayəndələrinin düşərgəsidir. Uzun illər ərzində bu qurum Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin işğalına qarşı heç bir tədbir görməyib, yalnız ara-sıra bəyanat və qərarlar verməklə kifayətlənib. Halbuki bir quruma üzv olan iki ölkədən birinin digərinin ərazisini işğal etməsi faktına görə ən azından işğalçının səs hüququ əlindən alına bilərdi".

Xatırladaq ki, AŞPA 23 oktyabr 2023-cü il tarixində "Dağlıq Qarabağda humanitar vəziyyət" adlı qətnamə qəbul edib. Həmin qətnamənin 23-cü bəndində təşkilat Azərbaycanı təhdid edərək 19 sentyabrda baş tutan lokal xarakterli antiterror əməliyyatlarını, hərbi əməliyyat kimi qiymətləndirərək Qarabağın erməni əhalisinin "humanitar vəziyyətindən ciddi narahatlıq" ifadə edib və Azərbaycan nümayəndə heyətini etimadnaməsini 2024-cü ilin ilk iclasında tanımamaq ilə hədələyib. Frank Şvabe təşəbbüsü irəli sürərkən çıxışında "100 mindən artıq Qarabağ ermənilərinin zorakılıqla qovulması və AŞPA məruzəçilərinin Laçın yoluna buraxılmamasını" Azərbaycanın təşkilatla əməkdaşlıqdan yayınması kimi qiymətləndirib.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025



## Trampdan hədə: “Vəziyyət daha da mürəkkəbləşəcək”

**"Mən İrana müqavilə bağlamaq üçün çox şans verdim".**

Musavat.com xəbər verir ki, bu barədə ABŞ Prezidenti Donald Tramp “Truth Social” hesabında bildirib. ABŞ lideri rəsmi Tehrana bununla bağlı ciddi xəbərdarlıq etdiyini, lakın İranın bu fürsətdən istifadə edə bilmədiyini vurğulayıb.

Tramp diqqətə çatdırıb ki, ABŞ ən yaxşı və ən ölümcül silahları istehsal edir: “İsrailin çoxlu silahları var və daha çoxu da gəlir”.

Vəziyyətin daha da pisləşəcəyini bəyan edən Tramp İranın mütəmadi olaraq ölkəsini təhdid edən yüksək rütbəli hərbçilərinin öldürüldüyünü deyib və rəsmi Tehrana xəbərdarlıq edib: “Əgər İran tərəfi siyasi kursunu dəyişməsə, vəziyyət daha da mürəkkəbləşəcək. Dağıntıların miqyası artıq böyükdür. Buna görə də rəsmi Tehran imperiyanın qalıqlarını xilas etmək üçün indidən hərəkətə keçməlidir. Ölüm və dağıntılar dayandırılmalıdır. Nə qədər gec deyil, bunu edin”, - Ağ Ev rəhbəri fikirlərini tamamlayıb.

# İrana qarşı “Hörümçək toru” - Mühüm simalar öldürüldü, bölgəni nə gözləyir?

## İsrail əməliyyatın iki həftə sürəcəyini bəyan etdi; Tehranın qisas cavabı nə olacaq? Bakının ön hazırlığı - rəylər



**İsrailin iyunun 13-də həyata keçirdiyi hava hücumu zamanı İran hərbi rəhbərliyinin bir neçə mühüm siması öldürülüb. “Yeni Müsavat”ın siyasət şöbəsi xəbər verir ki, bu barədə İranın “Mehr” Agentliyi məlumat yayıb. Məlumata görə, İsrail ali hərbçilərin yaşadığı binaları bombalayıb. Nəticədə Baş Qərargah rəisi Məhəmməd Baqiri, SEPAH komandiri Hüseyn Salami, SEPAH Aerokosmik Qüvvələrinin komandanı Əmir Əli Hacızadə, İranın Atom Enerjisi Təşkilatının rəhbəri Fereydun Abbasi, İran Baş Qərargahının “Xatəmül-Ənbiya” Mərkəzi Qərargahının komandanı general-mayor Qulam Əli Rəşid; nüvə fiziki - İranın nüvə layihəsinin liderlərindən biri Məhəmməd Mehdi Tehranci öldürülüblər.**

Məlumatlara görə, İranın hərbi rəhbərliyində olan şəxslər ölkənin içindən endirilən zərbələr nəticəsində aradan götürülüb. Eyni zamanda, hava hücumundan müdafiə sistemlərinə də daxildən zərbələr endirilib. Bu da Ukraynanın Rusiya ərazisində həyata keçirdiyi “Hörümçək toru” əməliyyatını xatırladır. İsrail əməliyyatın həyata keçirilməsi üçün İran ərazisində pilotsuz uçuş aparatlarının məxfi bazasını yaradıb. İsrailin “Israel Hayom” nəşri xəbər yayıb.

İsrailin Cənubi Azərbaycanda isə 10 məntəqəyə endirdiyi zərbələr nəticəsində Təbriz şəhərində 3 nəfər həlak olub. İranın Tasnim agentliyi Şərqi Azərbaycan Vilayətinin Böhran Vəziyyətlərinin İdarə Edilməsi İdarəsinin rəisinə istinadən yayıb.

Bildirilib ki, əməliyyata hazırlıq bir neçə il ərzində aparılıb və bu məqsədlə komandos qrupları, zərbə sistemləri, eləcə də bilavasitə İran ərazisindən buraxılan pilotsuz uçuş aparatları səfərbər edilib.

Nəşr həmçinin bu əməliyyatın üç hissədən ibarət olduğunu yazıb: “İlk mərhələdə Mossadın diversiya qrupları silah sistemlərini İranın zenit-raket komplekslərinin yaxınlığında yerləşdirib. Əməliyyat başlayan kimi İsrailə məxsus raket sistemləri hərbi aviasiya ilə paralel zərbələrin endirilməsinə başlayıb. Əməliyyatın ikinci hissəsində İranın hava hücumundan müdafiə sistemləri zərərsizləşdirilməli olub. Bu məqsədlə raketlər nəqliyyat vasitələrinin üzərində yerləşdirilib. Hücum zamanı onlar İranın hava hücumundan müdafiə sistemlərinə İsrailə məxsus 200 ədəd qırıcını vurmağa mane olub”.

Rusiyalı tanınmış filosof və ictimai xadim Aleksandr Duqin İsrailin İrana qarşı həyata keçirdiyi son dron hücumlarını şərh edərək bunun təsadüfi olmadığını bildirib. “İranda dronların yerləşdirilməsi və istifadə olunması, yaxın keçmişdə Kiyev tərəfindən Rusiya hərbi aerodromlarına qarşı həyata keçirilmiş əməliyyatı çox xatırladır. Bu, eyni strateji yanaşmadır. Çox çətin ki, bu bir təsadüf olsun,” - deyə Duqin qeyd edib.

İranın daxili işlər naziri İskəndər Momeni deyib ki, İsrailin İrana hücumu nəticəsində mülki vətəndaşlar və uşaqlar da həlak olub. İranın Təbriz şəhəri ətrafında növbəti dəfə partlayış səsləri eşidilib. İran İsrailin zərbələri ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının təcili iclasının çağırılmasını tələb edir. IRNA məlumat yayıb. BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsi tələbi ilə İranın BMT-dəki daimi nümayəndəsi Əmir Səid İrəvani müraciət edib. İran mülki şəxslərin, eləcə də alimlərin və hərbçilərin ölümü ilə nəticələnən İsrail zərbələrinə sərt cavab verəcək. Bu barədə İran hökumətinin bəyanatında deyilir.

“İran heç bir ölkə ilə müqayisə oluna bilməz və onun cavabı qəti, qanuni və uyğun vaxtda olacaq”. İran hökumətinin sözçüsü Fatimə Mohacerani belə deyib. “İran heç vaxt müharibəyə təşəbbüs göstərməyib, amma təcavüz qarşısında da heç vaxt susmayıb və susmayacaq. Sionist rejimin (İsrail) İran torpağına qorxaqcasına hücumu səhv hesablamadır və böyük xalqımızdan qorxusunun əlamətidir. İranı heç bir ölkə ilə müqayisə etmək olmaz və onun cavabı qəti, qanuni və vaxtında olacaq. Bu hekayənin sonunu İran yazacaq”, - ölkə rəsmisi bildirib.

Onu da deyək ki, İsrailin İran ərazisinə təşkil etdiyi hücum nəticəsində İsfahan əyalətində yerləşən Nataəz nüvə obyektinin tamamilə məhv edildiyi bildirilir. İran dövlət televiziyası hücumun nəticəsində bölgədə tüstü buludlarının yüksəldiyini açıqlayıb. Beynəlxalq Atom Enerjisi Agentliyinin (UAEA) rəhbəri Rafael Mariano Qrossi məsələ ilə bağlı verdiyi açıqlamada vəziyyətin narahatedici olduğunu deyib.

“İsrail İrana qarşı ekzistensial döyüşə girib”. Bunu İsrail Hərbi Kəşfiyyat İdarəsinin rəisi general-mayor Şlomi Binder deyib. Binder komanda mərkəzində hərbçilərə müraciətində bildirib: “Bizi məhv etməyə çalışan bir düşmənə qarşı ekzistensial döyüşə giririk. Siz bunu çox eşitmisiniz: onlar nüvə imkanlarını inkişaf etdirməyə çalışırlar və bu yöndə sürətlə irəliləyirlər, böyük həcmdə adi silahlar hazırlayırlar”.

Hərbi kəşfiyyatın rəhbəri qeyd edib ki, İsrailin məqsədi bu təhlükəni aradan qaldırmaqdır". Binder Silahlı Qüvvələrin yüksək hazırlıq səviyyəsində olduğunu, İrana qarşı döyüşə çox güclü başlanğıc mövqeyi ilə girdiklərini sözlərinə əlavə edib. İsrail əməliyyatın iki həftə davam edəcəyini açıqlayıb.

Yeri gəlmişkən, bu hücumdan sonra İran ABŞ ilə nüvə danışıqlarını davam etdirməkdən imtina edib. İran Xarici İşlər Nazirliyi (XİN) ABŞ-ın İsrailin hücumlarına görə məsuliyyət daşıdığını bəyan edib. Bundan başqa, İranda baş verən son hadisələr fonunda İran Silahlı Qüvvələrinin elit birliyi olan İnqilab Keşikçiləri Korpusunun (SEPAH) rəhbərliyində dəyişiklik edilib. İranın Ali Lideri Ayətullah Əli Xameneyinin sərəncamı ilə Sərdar Vahidi SEPAH-ın yeni baş komandanı təyin olunub. Bu təyinat əvvəlki komandan Hüseyn Səlaminin İsrailin hücumu nəticəsində həlak olmasından sonra həyata keçirilib. İranın Ali Rəhbəri Əli Xamenei Həbibullah Səyyarini isə İran Silahlı Qüvvələrinin müvəqqəti Baş qərargah rəisi təyin edib.

Baş verənlərlə bağlı rəsmi Bakıdan da reaksiya gəlib. Azərbaycan İsrailin İranda keçirdiyi hərbi əməliyyatlardan ciddi şəkildə narahatdır. Musavat.com xəbər verir ki, bu barədə XİN bəyanat yayıb. Bəyanatda tərəflər mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq dialoq və diplomatik yollarla həll etməyə çağırılıb: “Mülki əhalinin və obyektlərin təhlükəsizliyinin təmin edilməsinin vacibliyini xüsusi olaraq vurğulayırıq. Yaxın Şərqdə vəziyyətin daha da gərginləşməsinin qarşısını almaq məqsədilə diplomatik yollarla təmasların və müvafiq beynəlxalq mexanizmlər çərçivəsində səylərin davam etdirilməsi əhəmiyyət kəsb edir”.

Həmçinin Azərbaycanın İsraildəki səfirliyi vətəndaşlara müraciət edərək onları təhlükəsizlik qaydalarına əməl etməyə çağırıb. Müraciətdə Azərbaycan vətəndaşlarından İsrailin yerli səlahiyyətli qurumları tərəfindən verilən təhlükəsizlik təlimatlarına tam uyğun şəkildə davranmaları və mümkün qədər sığınacaqlara yaxın ərazilərdə olmaları xahiş olunub. Habelə rəsmi Bakı Azərbaycan vətəndaşlarının zəruri olmadığı təqdirdə İrana səfərdən çəkinmələri, səfər edənlərin isə yüksək ehtiyatlılıq nümayiş etdirmələrini tövsiyə edib.

Politoloq Elxan Şahinoğlu hesab edir ki, Azərbaycan İrandakı hadisələrin müxtəlif ssenariləri üzrə inkişafına hazır olmalıdır: “İrandakı soydaşlarımız müharibədən qorunmaq üçün Türkiyə və Azərbaycana üz tuta bilərlər. Bu halda soydaşlarımıza sığınacaq verməli olacağıq. Müharibənin bu həddə çatmasını arzulamırıq. Digər tərəfdən Azərbaycanda təhlükəsizlik tədbirlərinin artırılmasına ehtiyac yaranıb. Çünki İranın mühafizəkar dairələri radikallaşaraq ABŞ və İsraillə əməkdaşlıq edən bölgə ölkələrinə qarşı "addımlar" ata bilərlər".

“İsrail-İran münasibətlərinin gərginləşməsi fonunda sosial şəbəkələrin xarici seqmentində guya Azərbaycan hərbi təyyarələrinin İranla sərhəddə uçuşlar etdiklərinə dair həqiqətə uyğun olmayan məlumatlar yayılmaqdadır”.

Bu barədə günün ikinci hissəsində APA-ya Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyindən məlumat verilib. Bildirilib ki, informasiya manipulyasiyası məqsədilə hazırlanmış bu tip “xəbərlər” saxtadır və qətiyyən reallığı əks etdirmir.

“Cəmiyyəti yalnız rəsmi mənbələrin verdiyi məlumatlara inanmağa, jurnalistləri, ictimai fəalları bu kimi hallara qarşı hər zaman prinsipiallıq nümayiş etdirməyə, saxta və yalan məlumat əsaslı kampaniyaların vüsət aldığı bir şəraitdə sayıq olmağa çağırırıq”, - məlumatda qeyd olunub.

Qəzet çapa gedərkən İsrailin Təbriz, Şirazda hərbi obyektlərə, aeroporta zərbələr endirdiyi xəbərləri yayılmışdı.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

# Minlərlə azərbaycanlı tələbənin taleyi sual altında

## Ekspert: “Ölkədə 10 mindən çox tələbənin xaric olunması sistemin zəifliyidir”



**Hər il Azərbaycanda dövlət və özəl universitetlərdə oxuyan tələbələrdən bəziləri müxtəlif səbəblərdən təhsil müəssisəsindən xaric olunur. “Bakı-Xəbər” yazır ki, həmin tələbələr təhsildən ali və orta ixtisas təhsili məktəbləri tələbələrinin köçürülməsi, tələbələr sırasından xaric edilməsi və bərpa olunması, akademik məzuniyyət alması və təkrar kursda saxlanılması haqqında əsasnaməyə uyğun kənarlaşdırılır.**

Dövlət İmtahan Mərkəzinin nəşr etdiyi 2024-2025-ci tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinə dair elmi-statistik materialların əks olunduğu “Abituriyent 12” jurnalında qeyd olunur ki, Azərbaycanda 10 mindən çox tələbə universitetdən xaric edilib: ”Onlardan 54-ü bakalavriat, 5-i magistratura, 12-si tam orta ixtisas, 5-i isə orta ixtisas bazası üzrə təhsil alan tələbələr olub. Bundan başqa, 2024-cü ildə akademik borca görə 315, digər təhsil müəssisəsinə köçürülmə ilə əlaqədar 1 133, təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə 10 min 746 tələbə universitetdən xaric olunub".

Maraqlıdır, bir ildə 10 min 746 nəfərin universitetdən xaric edilməsi Azərbaycan təhsil sisteminin keyfiyyəti ilə bağlıdır, yoxsa buna səbəb olan hansısa başqa məqamlar var? Xaric olunan tələbələrin təhsilə qayıtması üçün ikinci şans mexanizmləri varmı?

Təhsil üzrə mütəxəssis Kamran Əsədov mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bildirib: “Ali təhsil sistemindən hər il minlərlə tələbənin xaric olunması, ilk baxışda fərdi məsuliyyətsizlik və ya akademik zəiflik kimi görünə bilər. Lakin əslində bu rəqəmlər daha dərin sistematik problemlərin göstəricisidir. Dövlət İmtahan Mərkəzinin dərc etdiyi 2024-2025-ci tədris ilinə dair ”Abituriyent 12” jurnalında qeyd olunur ki, yalnız 2024-cü il ərzində 10 min 746 nəfər müxtəlif səbəblərlə ali və orta ixtisas məktəblərindən çıxarılıb. Bu göstərici Azərbaycan ali təhsilində davamlılıq və dəstək sistemlərinin zəifliyini göstərən ciddi siqnaldır.

Qanunvericiliyə əsasən, “Ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin köçürülməsi, tələbə sırasından xaric edilməsi və bərpası Qaydaları”na (Nazirlər Kabinetinin 11 saylı qərarı, 17 yanvar 2020) uyğun olaraq tələbənin təhsil haqqını ödəməməsi, akademik borclar, davamiyyətsizlik və ya şəxsi müraciət səbəbilə təhsil hüququna xitam verilə bilər. Rəsmi olaraq hüquqi əsaslar mövcuddur, lakin bu hallar kütləvi xarakter alırsa, səbəbləri daha geniş müstəvidə təhlil edilməlidir.

Mövcud rəqəmlərə nəzər saldıqda aydın olur ki, ən böyük qrup - təqribən 315 nəfər - akademik uğursuzluq, 1 133 nəfər isə başqa təhsil müəssisəsinə köçmə səbəbilə sistemdən çıxıb. Ən çox narahatlıq doğuran kateqoriya isə 9 mindən çox tələbənin ya təhsil haqqını ödəyə bilmədiyi, ya da dərs buraxdığı üçün sistemdən kənarda qalmasıdır. Bu isə göstərir ki, Azərbaycanda ali təhsil nə yalnız bilik, nə də sadəcə imkan məsələsidir - burada həm də sosial bərabərsizliyin təsiri var".

Ekspert qeyd edib ki, təhsil haqqının yüksək olması xüsusilə regiondan gələn və ya sosial cəhətdən zəif təbəqədən olan gənclərin ali təhsildə davamlılığını ciddi şəkildə təhdid edir: “Hazırda bəzi ixtisaslar üzrə bir illik təhsil haqqı 2 500-5 000 manat arasında dəyişir. Dövlət Təhsil Kreditləri Fondu fəaliyyətə başlasa da, illik 20 minə yaxın müraciətdən yalnız təqribən 3 500-nə müsbət cavab verildiyi bildirilir. Bu isə tələbələrin böyük bir hissəsinin maddi yük qarşısında tək qalmasına səbəb olur.

Bundan əlavə, ali təhsil müəssisələrinin öz daxili resursları ilə tələbəyə fərdi dəstək və akademik yardım mexanizmləri çox zəifdir. Məsələn, ABŞ universitetlərində “academic probation” adlanan sistem tətbiq olunur: zəif nəticə göstərən tələbə dərhal xaric edilmir, müəyyən şərtlərlə akademik nəzarət altına alınır, fərdi planla davam etməsinə imkan yaradılır. Estoniyada isə hər universitetdə risk qrupunda olan tələbələr üçün psixoloq, tədris məsləhətçisi və mentor xidməti sistemli şəkildə fəaliyyət göstərir. Finlandiyada tələbələrin sistemdən çıxmaması üçün dərsdən əlavə təlimlər, yay məktəbləri və fərdi dərs planları geniş şəkildə tətbiq olunur. Azərbaycanda isə bu cür dəstək sistemləri çox hallarda formal xarakter daşıyır. Tələbə dərs buraxdığına və ya borc yığdığına görə tez bir zamanda universitetlə əlaqəsi kəsilir. Halbuki bu cür halların arxasında bəzən ailə problemləri, iqtisadi çətinliklər və ya psixoloji gərginliklər dayanır. 2023-cü ildə aparılan bir yerli sorğuya əsasən, ali təhsil alan tələbələrin 41%-i dərs buraxmasının əsas səbəbi kimi iş yükü və maddi çətinliyi göstərib. Bu isə tələbələrin təhsil almaqla paralel işləməyə məcbur olduqlarını göstərir ki, bu da onların akademik göstəricilərinə mənfi təsir edir.

Müsbət tərəf isə ondan ibarətdir ki, hazırkı qanunvericilik tələbənin bərpa hüququnu tanıyır. Xaric olunmuş şəxs 5 il müddətində əvvəlki ixtisas üzrə təhsilə qayıda bilər. Amma bu proses çox vaxt inzibati əngəllərlə müşayiət olunur və ali təhsil müəssisələrinin buna yanaşması fərqli olur. Eləcə də tələbənin bərpa olunması üçün maddi borcları tam ödəməsi şərt kimi qoyulur, bu isə real olaraq çoxları üçün qayıdışı mümkünsüz edir.

Gələcəkdə bu problemin dərinləşməsinin qarşısını almaq üçün struktur səviyyədə dəyişikliklərə ehtiyac var. Təhsil kreditləri sistemi daha geniş kateqoriyanı əhatə etməlidir. Eyni zamanda, ali məktəblərdə tələbələrin akademik və sosial vəziyyətlərini izləyən və vaxtında müdaxilə edən erkən xəbərdarlıq sistemləri qurulmalıdır. Tələbələrə yalnız dərsdən çıxandan sonra yox, problem yaşamağa başlayarkən dəstək verilməlidir. Təhsil müəssisələrinin üzərinə düşən vəzifələrdən biri də bu gənclərin sistemdə qalmasını təmin etməkdir, yoxsa sadəcə onların məsuliyyətsizliyi ilə izah olunaraq silinməsi yox. Əgər bu tendensiya dəyişməzsə, universitetlər getdikcə daha çox tələbə itirəcək və bu da nəinki təhsil sisteminə, həm də ölkənin insan kapitalına ciddi zərbə olacaq. Ali təhsil sadəcə diplom almaq vasitəsi deyil, eyni zamanda sosial inteqrasiya və şəxsiyyət formalaşdırma prosesidir. Bu sistemin davamlı və inklüziv olması üçün fərdi səhvlərlə yanaşı, sistemin öz zəif tərəflərinə də ciddi yanaşmaq zəruridir. Tələbənin uğursuzluğu əgər kütləvi xarakter alırsa, deməli burada məsuliyyət təkcə tələbənin deyil, həm də sistemin üzərinə düşür".

❑ **Afaq MİRAYİQ,
“Yeni Müsavat”**




## Kondisioner qoşmayan taksiləri cəza gözləyir

**Yay mövsümünün gəlməsi ilə paytaxtda taksilərdə kondisioner problemi yenidən aktuallaşıb. İstiliklərin artması sərnişinlər və sürücülər arasında mübahisələrə səbəb olub. Sosial şəbəkələrdə və ictimai müzakirələrdə kondisioner qoşulması ilə bağlı müzakirələr aparılır.**

Sərnişinlərin taksi xidməti zamanı üzləşdikləri müxtəlif problemlərlə, o cümlədən kondisionerin işlədilməsinə görə əlavə ödəniş tələb edilməsi halları ilə bağlı məsələyə aydınlıq gətirmək üçün Modern.az AYNA-nın (Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi) Mətbuat Xidməti ilə əlaqə saxlayıb.

Rəsmi qurumdan verilən məlumata əsasən, yaşanan problemlə bağlı sərnişinlərin AYNA-nın “141” Çağrı Mərkəzinə və ya qurumun rəsmi sosial şəbəkə hesablarına müraciət etmələri xahiş olunur. Həmçinin bildirilib ki, müraciət zamanı nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının qeyd edilməsi vacibdir.

“AYNA tərəfindən daxil olan şikayətlər araşdırılır və xidmət keyfiyyətini aşağı salan, qanunsuz halların qarşısının alınması üçün müvafiq tədbirlər görülür. ”Lisenziyalar və icazələr haqqında" qanuna əsasən, müəyyən olunmuş tələblərə əməl etməyən sürücülərin icazələri isə qanunvericiliyə uyğun şəkildə ləğv olunur", -deyə qurumdan əlavə edilib.

## Məşhur klinika sahibinin başı dərddə

**Yarım milyonluq borc, “stop” “Planeta” İstehsal Kommersiya Şirkətinin yarım milyondan çox vergi borcu var.**

Musavat.com xəbər verir ki, şirkət uzun zamandır vergiyə yaranmış borcunu ödəmir. Qanuni təmsilçisi Yaqubov Elxan Ənvər oğlu olan şirkətə Bakıda fəaliyyət göstərən bir neçə “Plneta” apteklər şəbəkəsi daxildir. Həmçinin Bakıdakı məşhur klinikalardan biri olan Bioloji Təbabət Klinikası da Elxan Yaqubovun nəzarətindədir.

“Planeta” apteklər şəbəkəsinə daxil olan apteklərdə əsasən şirkətə məxsus dərmanların satışı həyata keçirilir. Məhkəmə qərarı ilə Elxan Yaqubovun ölkədən çıxışına da qadağa qoyulub.

❑ **İ.MURADOV
Musavat.com**

# Bu gün məktəblərdə "Son zəng" çalınacaq

## Rəsmi qurumlar valideynlərə çağırış etdi



**Bu gün - iyunun 14-də Azərbaycanın bütün orta məktəblərində "Son zəng" çalınır. Bu, təkcə bir dərs ilinin başa çatması deyil, minlərlə gəncin həyat yolunun yeni mərhələsinə qədəm qoyması deməkdir. 11 illik məktəb xatirələrinə vida deyən şagirdlər üçün bu gün həm kövrək, həm də ümid doludur.**

Rəsmi rəqəmlərə əsasən, bu il ölkə üzrə 116 min 222 şagird məktəblə vidalaşaraq məzun olur. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov bildirib ki, "Son zəng" tədbirləri ilə bağlı bütün təhsil müəssisələrinə nümunəvi təlimat göndərilib. Bu tədbirlərin əsas məqsədi təmtəraqdan uzaq, sadə, mənalı və səmimi ab-hava yaratmaqdır.

"Biz istəyirik ki, valideynlərin üzərinə əlavə maliyyə yükü düşməsin, məktəbdə isə yaradıcı çıxışlar, şagirdlərin özlərinin hazırladığı maraqlı hissələr ön planda olsun. Əsas odur ki, tədbir məktəbin daxilində və yaddaqalan şəkildə keçsin", - deyə Eşqi Bağırov vurğulayıb.

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri, professor Hikmət Əlizadə də tədbirlərin forma və mahiyyəti ilə bağlı maraqlı təklif irəli sürüb. O bildirib ki, "Son zəng" mərasimi rəsmi çıxışlardan çox, xatirələr, musiqilər və şagirdlərin özlərini ifadə etdiyi səhnələrlə yadda qalmalıdır:

"Şagird məktəbdən gülümsəyərək ayrılmalıdır. O hiss etməlidir ki, məktəb onun həyatında yaddan çıxmaz bir mərhələdir. Gələcəkdə qarşılaşacağı çətinliklərdə yenə məktəbə - onu anlayan müəllimlərinə dönə biləcəyini bilməlidir".

2024-2025-ci tədris ilində işğaldan azad edilən rayonlarda fəaliyyət göstərən təhsil müəssisələrindən tam orta təhsil səviyyəsi üzrə 84 nəfər məzun olacaq.

Bu barədə Modern.az-a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib.

"Son zəng" tədbirlərinin təhlükəsizliyi ilə bağlı Daxili İşlər Nazirliyi də hərəkətə keçib. Nazirliyin yaydığı məlumata görə, iyunun 14-də məktəblərin ətrafında asayişin qorunması üçün əlavə polis naryadları yerləşdirilib. Həmçinin məzunların avtomobillərlə hərəkəti zamanı yol hərəkəti qaydalarına nəzarət gücləndiriləcək, dayanma-durma və parklanma məsələlərinə xüsusi diqqət yetiriləcək.

Daxili İşlər Nazirliyi valideynlərə bir daha xəbərdarlıq edir: "Sürücülük vəsiqəsi olmayan övladlarını sükan arxasına əyləşdirməyin. Məzunlara isə çağırış olunur: sevincli gününüzü məsuliyyətlə keçirin, nə özünüzü, nə də başqalarını təhlükəyə atmayın".

Bu gün məktəbin həyatındə bir-birinə sarılan müəllimlə şagirdin baxışlarında yalnız vida yox, minnətdarlıq da var. Bu gün gənclərin gözündəki parıltı - arzuların, ideyaların, ümidlərin parıltısıdır. "Son zəng" - sadəcə bir simvol deyil. Bu, qapının bağlanması yox, yeni bir üfüqə doğru addımlamaq deməkdir.

❑ **Şahanə RƏHİMLİ,**
**"Yeni Müsavat"**

# Bank kartlarını talayanlar belə tutulacaq

**Ölkəmizdə son illərdə ən çox yayılan cinayət növlərindən biri də bank kartı fırıldaqları, elektron hesabların talanması və insanları aldadaraq onların plastik kart məlumatlarını əldə edib pullarını ələ keçirmək hallarıdır. Bu cür halların sayının artması təkcə hüquq-mühafizə orqanlarını deyil, bank sektorunu, dövlət strukturlarını, həm də hər bir Azərbaycan vətəndaşını narahat etməyə başlayıb.**




Bu təhlükənin artıq qanunvericilik səviyyəsində daha ciddi nəzarət altına alınmasına qərar verilib. Milli Məclisin son iclasında Cinayət-Prosessual Məcəlləyə mühüm dəyişiklik edilib. Əgər əvvəllər belə cinayətlərlə bağlı istintaq tədbirlərinin icrası üçün məhkəmə qərarının alınması müəyyən müddət aparırdısa, indi bu müddət maksimum 24 saatla məhdudlaşdırılır. Bu isə o deməkdir ki, bank kartlarından oğurluq halları üzrə təxirəsalınmaz istintaq tədbirləri aparılacaq.

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov Musavat.com-a deyib ki, qanunda dəyişiklik bank kartlarından oğurluqlar zamanı hüquq-mühafizə orqanlarının hərəkətlərini sürətləndirəcək: " Qanunvericiliyə edilən düzəlişə əsasən, bank kartlarından pul vəsaitlərinin talanması hallarında müstəntiq tərəfindən təxirəsalınmaz istintaq hərəkətlərinin aparılması barədə vəsatət məhkəmə tərəfindən 24 saat ərzində baxılmalıdır. Əvvəllər bu müddət daha uzun çəkdiyi üçün istintaq hərəkətləri, o cümlədən bank əməliyyatlarının bloklanması, tranzaksiyaların təhlili və s. ləngiyirdi. Bu isə oğurluq edilmiş vəsaitlərin izinin itirilməsinə, bəzən isə onların ölkədən çıxarılmasına şərait yaradırdı. Yeni mexanizm bu boşluğu aradan qaldırmaq məqsədi daşıyır. İstintaqın çevikliyi artırılacaq, hüquq-mühafizə orqanları daha tez müddətdə banklardan məlumat alacaq və zərərçəkmişin hüquqlarını müdafiə edə biləcək. İndi cinayətkarlar biləcəklər ki, polis və müstəntiqlər məhkəmə qərarını uzun müddət gözləməyəcək, banklardan əməliyyat məlumatlarını daha operativ alacaq, oğurlanmış vəsaitləri dərhal bloklaya biləcəklər. Bu isə cinayətkarın oğurladığı pulun izini itirməyə lazım olan zamanın aradan qalxmasıdır. Belə olanda oğurlanmış pul "dondurulacaq" və izi açıq qalacaq. Bu isə cinayətkarın kimliyini müəyyən etmə imkanlarını genişləndirəcək".

Natiq Ələsgərov deyib ki, "bu, problemi tam həll edəcəkmi" sualına belə cavab verib: "Təəssüf ki, təkcə qanunla mübarizə tam nəticə verməyəcək.Çünki bu cür fırıldaqlar texnologiya ilə bərabər dəyişir və inkişaf edir. Ən güclü qanun da, ən çevik polis də insan faktoru olmadan bu savaşı uda bilməz. Hər bir kart sahibi bilməlidir ki, bank heç vaxt telefonla sizdən PIN-kod, CVV və ya SMS kod istəməz. Heç bir "bank əməkdaşı" kartınızla bağlı təhlükəli vəziyyət bəhanəsi ilə sizdən məlumat tələb edə bilməz. Ən yaxşı müdafiə məlumatlılıqdır. Bu səbəbdən də hüquqi bazanın gücləndirilməsi ilə yanaşı geniş maarifləndirmə kampaniyalarına ehtiyac var. Xüsusilə yaşlı nəsil, texnologiyaya bələd olmayan əhali risk altındadır. Əlbəttə ki, banklar da məsuliyyətdən kənarda deyil. Onların təhlükəsizlik sistemləri daim yenilənməli, şübhəli əməliyyatlar avtomatik dondurulmalıdır. Müştəriyə hər alış-veriş barədə dərhal bildiriş göndərilməli, qəribə və qeyri-adi əməliyyat baş verəndə bank dərhal xəbərdarlıq etməlidir. Bəzi ölkələrdə olduğu kimi, Azərbaycanda da müştəri vəsaitlərinin oğurluq hallarında bankın müəyyən sığorta ödənişi etməsi mexanizmi yaradılmalıdır. Çünki vətəndaşın ən böyük qorxusu odur ki, pulu getsə, bərpa etmək mümkün olmayacaq".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**Musavat.com**



# İş yerində ad günü olar, ya olmaz - hüquqşünas rəyi

## Son vaxtlar belə tədbirlər keçirənlər cəzalandırılır - mütəxəssis isə deyir ki...

**Sabunçu Tibb Mərkəzinin Psixosomatika şöbəsinin müdiri Vüqar Qazıyev işdən çıxarılıb. Bununla bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru Vüqar Qurbanov əmr imzalayıb. V.Qazıyevin bir müddət əvvəl Sabunçu Tibb Mərkəzində ad günü şənliyi keçirdiyi, bundan sonra tibb müəssisəsində qalmaqal yarandığı iddia olunur. Onunla birlikdə təsərrüfat işçisi və baş tibb bacısının da işdən qovulduğu bildirilir.**

Xatırladaq ki, bundan qabaq Azərbaycanda həkim əməliyyat zamanı doğum gününü qeyd edib. "German Hospital"ın cərrah mama-ginekoloqu Ləman Əliyeva əməliyyat zamanı iş yoldaşları tərəfindən "sürpriz"lə qarşılaşıb. Belə ki, o, əməliyyatda olarkən hospitalın digər işçiləri əməliyyat otağına əlcəksiz daxil olaraq həkimi doğum günü münasibətilə təbrik ediblər. Səhiyyə Nazirliyi Ləman Əliyevanın əməliyyat zamanı doğum gününü qeyd etməsi ilə bağlı "German Hospital"da yoxlamalar aparıb və dörd əməkdaşı cərimələmişdi.

Bu dəfə isə Sabunçu Tibb Mərkəzinin Psixosomatika şöbəsinin müdiri Vüqar Qazıyev doğum günü tədbirinə görə cəzalandırılıb.

Qanunlarımız nə deyir, iş yerində ad günü keçirmək yasaqdırmı? Bu halda hansı cəza nəzərdə tutulur?

Hüquq üzrə fəlsəfə doktoru Əlövsət Allahverdiyev "Yeni Müsavat"a açıqlamasında sözügedən məsələ ilə bağlı qanunvericilikdə konkret qadağanın olmadığını bildirdi:

"Qanunvericilikdə birbaşa olaraq iş yerində ad günü keçirməyə qadağandır müddəası yoxdur, lakin dövlət orqanlarında və digər büdcə təşkilatlarında (o cümlədən tibb müəssisələrində) daxili intizam qaydaları və etik davranış normaları mövcuddur ki, bu qaydalar belə tədbirlərin keçirilməsinə məhdudiyyətlər qoya bilər. Sabunçu Tibb Mərkəzində Vüqar Qazıyevin doğum günü tədbirinə görə cəzalandırılması, böyük ehtimalla, bir neçə səbəbdən irəli gəlir:

Hər bir təşkilatın öz fəaliyyətini tənzimləyən daxili intizam qaydaları olur. Bu qaydalar iş yerində hansı fəaliyyətlərin qadağan olduğunu, hansı davranışların yolverilməz olduğunu müəyyən edə bilər. İş yerində ad günü kimi tədbirlərin keçirilməsi, iş prosesini pozduğu, işçilərin diqqətini yayındırdığı və ya iş mühitinə uyğun olmadığı üçün bu qaydalara zidd ola bilər.

Dövlət qulluqçularının və büdcə təşkilatlarında çalışanların etik davranış qaydaları var. Bu qaydalar işgüzar mühiti qorumağı, resurslardan səmərəli istifadə etməyi və vəzifə borcuna vicdanla yanaşmağı tələb edir. İş saatı ərzində və ya iş yerində şəxsi məqsədlər üçün tədbirlər keçirmək, bu etik normaların pozulması kimi qiymətləndirilə bilər.

Dövlət müəssisəsində iş yerinin, iş saatlarının və digər resursların şəxsi tədbirlər üçün istifadə edilməsi yolverilməz hesab oluna bilər.

Pandemiya dövründə, xüsusilə tibb müəssisələrində kütləvi toplaşmaların və tədbirlərin keçirilməsi ciddi şəkildə qadağan olunmuşdu. Hərçənd pandemiya artıq böyük ölçüdə arxada qalsa da, bu cür tədbirlər hələ də sanitar-epidemioloji normalara zidd hesab oluna bilər".

Ə.Allahverdiyev qeyd edib ki, iş yerində daxili intizam qaydalarının və ya etik davranış normalarının pozulmasına görə nəzərdə tutulan cəzalar Əmək Məcəlləsi ilə tənzimlənir və bu halda intizam tənbehi tətbiq olunur:

"Vüqar Qazıyevin cəzalandırılması, ehtimal ki, bu intizam tədbirlərindən biri (məsələn, məzəmmət və ya şiddətli məzəmmət) ilə həyata keçirilmişdir. Daha əvvəl də bu cür halların yaşanması, təşkilatın daxili qaydalarının bu məsələyə ciddi yanaşdığını göstərir. Qeyd etmək lazımdır ki, hər bir hal fərdi şəkildə araşdırılır və cəza növü pozuntunun ağırlığından, nəticələrindən və əvvəlki hallardan asılı olaraq müəyyən edilir".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

# Torpaq özəlləşməsində mühüm addım

## Qanunvericiliyə dəyişiklik nə vəd edir?

**Azərbaycanda torpaq üzərində hüquqların dövlət qeydiyyatına alınması sahəsində qanunvericiliyə dəqiqləşmələri nəzərdə tutan dəyişikliklər hazırlanıb. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna təklif olunan dəyişikliklər artıq Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin keçirilmiş iclasında müzakirəyə çıxarılıb.**

Qanun layihəsinə verilən izahatdan aydın olur ki, sənəd Konstitusiya Məhkəməsinin "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunun 15-ci maddəsinin şərh edilməsinə dair" 28 mart 2017-ci il tarixli qərarından, eyniadlı 10 dekabr 2024-cü il tarixli qərardadından irəli gələrək hazırlanlb. Bu sənədlərdə göstərilir ki, torpaq sahəsi üzərində hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə torpağın kateqoriyası (məqsədli təyinatı) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi kateqoriyaya uyğun gəlmədikdə, həmin torpaq üzərində hüquqların dövlət qeydiyyatından imtina edilə bilər. Eyni zamanda bu mövqe əsas götürülməklə daşınmaz əmlakın dövlət qeydiyyatından imtina edilməsinin qanunvericilik qaydasında tənzimlənməsi tövsiyə edilib. Qərarda həmçinin deyilir ki, Konstitusiyanın 25-ci maddəsinin, habelə "İnzibati icraat haqqında" qanunun 12-ci maddəsinin tələblərinə müvafiq olaraq, inzibati orqanın müxtəlif şəxslərə münasibətdə analoji xüsusiyyətlərə malik işlər üzrə fərqli qərarlar qəbul etməsi yolverilməzdir. "Konstitusiya Məhkəməsi haqqında" qanuna əsasən qurumun qərarları ölkə ərazisində məcburi qüvvəyə malikdir və qüvvəyə mindikdən sonra şərtsiz icra olunmalıdır.

Bildirilir ki, praktikada hüquqların dövlət qeydiyyatına alınması üçün təqdim edilən sənədlərdə göstərilən torpağın kateqoriyası (məqsədli təyinatı) ilə dövlət torpaq kadastrında saxlanılan məlumatlar (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi kateqoriya) arasında uyğunsuzluq hallarına rast gəlinir. Bu məsələ ilə bağlı qanunvericilikdə dəqiq tənzimləmə olmadığından qeydiyyat orqanlarının hüquqların qeydiyyatından imtina barədə qərarlarından məhkəmələrə müraciət edilirdi. Bu isə çoxsaylı məhkəmə mübahisələrinin yaranmasına və eyni zamanda fərli məhkəmə qərarlarının qəbuluna səbəb olurdu. Məsələnin aktuallığını nəzərə alaraq və vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədilə Konstitusiya Məhkəməsi yuxarıda qeyd olunan hüquqi mövqeləri müəyyən etsə də, bu sahədə yaranan məsələlərin qanunvericilik qaydasında tənzimlənməsinə zərurət formalaşıb. Qeyd olunanları nəzərə alaraq, müvafiq qanun layihəsi təqdim olunub.



Qanun layihəsinə əsasən qeydiyyat üçün təqdim olunan sənəddəki torpağın kateqoriyası (məqsədli təyinatı) ilə kadastr məlumatı arasında uyğunsuzluq aşkar edildikdə qeydiyyat orqanının vəzifəli şəxsləri tərəfindən 15 iş günü müddətində yerquruluşu sənədlərinin təhlili yolu ilə araşdırma aparılacaq. Qeyd etmək lazımdır ki, bu cür araşdırmanın aparılmasının qanunvericilikdə təsbit olunmaması səbəbindən məsələ tam araşdırılmır, bəzən qeyri-müəyyən qalırdı. Eyni zamanda belə araşdırmanın aparılması qeydiyyat orqanının mülahizəsindən asılı olurdu. Aparılan araşdırmanın nəticəsinə əsasən aşağıdakı tədbirlər görüləcək:

- təqdim edilən sənədlərdə göstərilən məlumatların doğruluğu təsdiq edildikdə, əmlak üzərində hüquqlar dövlət qeydiyyatına alınır və dövlət torpaq kadastrında müvafiq düzəlişlər edilir;

- təqdim edilən sənədlərdə göstərilən məlumatların yanlış olduğu təsdiq edildikdə isə hüquqların dövlət qeydiyyatına alınmasından imtina edilə bilər.

Beləliklə, qanun layihəsi qeydiyyat üçün təqdim olunan sənəddəki torpağın kateqoriyası (məqsədli təyinatı) ilə kadastr məlumatı arasında uyğunsuzluq aşkar edildikdə müvafiq araşdırmanın aparılmasının, araşdırma nəticəsində uyğunsuzluq təsdiq edildikdə isə torpaq üzərində hüquqların dövlət qeydiyyatından imtina edilə bilməsinin hüquqi əsaslarını təsbit edir.

Qeyd edək ki, torpaqların kadastr məlumatı ilə özəlləşdirmə üçün təqdim olunan sənədlərdəki məlumatı arasındakı fərq uzun illərdir həm fiziki şəxslərə, həm də sahibkarlara ciddi problemlər yaradırdı. Qanunverici bazadakı boşluqlar xüsusilə də Bakı və ətraf qəsəbələrdə yerləşən torpaqlarla bağlı qeydiyyat orqanı nümayəndələrinin bu məsələdən sui-istifadə etməsinə, bir çox hallarda isə qanunsuz tələblərin meydana çıxmasına səbəb olurdu. Məhz bu tələblərə görə əksər hallarda torpaq sahələrinin sahibləri məhkəmələrə üz tuturdular.

Konstitusiya Məhkəməsinin qərarı, ardınca "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna ediləcək dəyişiklik problemin vətəndaşların xeyrinə həllində mühüm rol oynaya bilər.

Bu dəyişiklik həmçinin özəlləşdirilmiş bir sıra bina və qurğuların altında yerləşən torpaq sahələrinin özəlləşdirilməsi sahəsində problemlərin həllində mühüm rol oynaya bilər. Məlumdur ki, Azərbaycanda həyata keçirilən özəlləşdirmə prosesi çərçivəsində çoxsaylı müəssisələrin bina və qurğuları özəlləşdirilib. Lakin həmin bina və qurğuların altındakı torpaqların təyinatı torpaq kadastrında fərqli, əsasən kənd təsərrüfatı təyinatlı qeyd edildiyinə görə sahibkarlar həmin sahələri özəlləşdirə bilmirlər. Qanunvericiliyə olunan dəyişiklik bu sahədə problemlərin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxara bilər.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT**

# Avtobus zolaqlarının statusu dəyişir? - Tıxaclara təsiri

## Ekspertlərə görə, xüsusi yerlərin ayrılması müsbət haldır, amma bəzi təhlükələr yaradır

**Avtobus zolaqlarında minik avtomobillərinin sərnişinləri mindirib-düşürməsi üçün xüsusi yerlər yaradılır. Bu barədə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) məlumat yayıb. Bildirilib ki, bu yerlər əsas cəlbetmə məntəqələri, nəqliyyat vasitələrinin rahat manevr etməsi və sərnişinlərin təhlükəsizliyi nəzərə alınmaqla təşkil edilir. Qeyd olunub ki, məqsəd avtobus zolaqlarında ictimai nəqliyyatın hərəkətinə mane olmadan sərnişinlərin minib-düşməsinə imkan yaratmaqdır.**




Nəqliyyat sahəsi üzrə ekspert Adil Nəbiyev "Yeni Müsavat"a şərhində bildirdi ki, Avtobus zolaqlarında minik avtomobillərinin sərnişinləri mindirib-düşürməsi üçün xüsusi yerlərin ayrılması müsbət haldır. A.Nəbiyev vurğuladı ki, bu qərar çoxdan verilməli idi: "Çox yerdə qırıq-qırıq xətt çəkilməyib, bu cür xətləmə döngəyə çatmamış edilir. İkinci zolaqda dönmə həm təhlükəlidir, həm də qayda pozuntusudur. Çox yerdə bu nişanlanma edilməyib. Bu isə yolverilməz haldır. Hələ ki, bu istiqamətdə iş görülmür. Digər tərəfdən minik avtomobilləri avtobus zolağına girə bilmirlər, dərhal cərimələnirlər, avtobuslar isə minik avtomobillərinin zolağına rahat şəkildə daxil ola bilirlər, amma cərimə olunmurlar. Dayanma-durma nişanları ilə bağlı vəziyyət də ürəkaçan deyil, hər yerdə quraşdırılıb, amma məhəl qoyan yoxdur. Əslində bayram günlərində dayanmağa icazə var, lakin reallıqda yoxdur. Həftənin tək və cüt günləri üçün dayanma-durma nişanlarını tətbiq etmək lazımdır ki, dayanma-durma problemi həllini tapsın. Bir məsələyə də diqqət çəkmək istəyirəm ki, şəhərin bəzi hissələrində saatlar qoyulmayıb. Bəzi prospektlərdə tıxac olmur, odur ki, avtobus zolağının çəkilməsi, minik avtomobillərinə məhdudiyyət qoyulmasının əhəmiyyəti yoxdur. Düşünürəm ki, şəhərin hər yerində yalnız pik saatlarda-səhər saat 07:00-dan-10:00-a qədər, axşamlar isə 17:00-dan 20:00-a qədər olan müddətdə məhdudiyyət tətbiq olunmalıdır. Pik saatlarda monitorinq aparılmasına ehtiyac var. Axının tənzimlənməsi üçün bu məqsədəuyğun olar. Eyni zamanda tıxacların qarşısını almaq üçün reversiv işıqforlara ehtiyac var. Qanunvericilikdə nəzərdə tutulsa da, tələb olsa da, təəssüf ki, reallıqda tətbiq olunmur. Avtobus zolaqlarında minik avtomobillərinin sərnişinləri mindirib-düşürməsi üçün xüsusi yerlər yaradılmasının tıxaca heç bir xeyri olmayacaq. Sərnişinləri mindirib-düşürənə qədər avtobuslar gözləməyə məcbur olacaqlar. Ümid edək ki, qəzalar olmayacaq. Məsələn, yolda 3 zolaq varsa, avtomobillər tıxacda dayanan zaman avtobuslar sürətlə keçib gedir. Halbuki, belə olmamalıdır. Bu, piyadalar üçün risk yaradır".

Nəqliyyat eksperti Elməddin Muradlı isə bildirib ki, avtobus zolaqlarının olduğu, nəqliyyat baxımından konflikt yaşanan bütün ərazilərdə bu tip həll yolları tətbiq olunmalıdır:

"Axşam saatlarında daha bir belə məntəqənin yaradıldığının şahidi olduq. Bu məntəqə Yusif Səfərov küçəsində, Neftçilər xəstəxanasının qarşısında yerləşir. Həmin ərazidə yalnız taksilərə deyil, digər minik avtomobillərinə də sərnişin mindirib-düşürməyə icazə verilir. Qeyd edim ki, orada dayanma və durma tam qadağandır. Sadəcə sərnişin mindirib-düşürmək məqsədilə qısa müddətli, təxminən 3 dəqiqəyə qədər dayanmağa icazə verilir. Belə məntəqələrə şəhərin digər hissələrində də ehtiyac var - xüsusilə 20 Yanvar dairəsi ətrafında, Ziya Bünyadov prospektində və digər əsas yollarda. Eyni zamanda avtobus zolaqlarının problem yaratdığı əsas küçələrdən biri də Neftçilər prospektidir. Bu ərazilərdə də oxşar məntəqələrin yaradılması vacibdir".

Ekspert qeyd edib ki, demək olar ki, Bakıda avtobus zolağı olan bütün ərazilərdə taksi sürücüləri və digər minik avtomobili sahibləri çətinlik çəkirlər:

"Taksi sürücüləri zolağa daxil olub sərnişin götürməyə tərəddüd edirlər. Bəziləri ikinci zolaqda dayanaraq sərnişin mindirir və ya düşürür ki, bu da ciddi təhlükə yaradır. Çünki avtobus zolağına daxil olduqda sürücülər 100 manat cərimə və 2 cərimə balı ilə üzləşirlər. Digər zolaqda dayanadqa isə bu, 80 manat və yenə 2 bal ilə cəzalandırılır. Bu vəziyyət nə sərnişinlər, nə də sürücülər üçün uyğun deyil. Biz bu mövzuya dəfələrlə toxunduq, aidiyyəti qurumlara təkliflərimizi verdik. Nəhayət, AYNA bu məsələni nəzərə aldı və icrasına başladı. Sevindirici haldır ki, bu proses artıq başlayıb".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

Yeni Müsavat
N 102 (8712) 14 iyun 2025

# Uşaqlar üçün ən uyğun tətil məkanları - valideynlər oxusun!

## Ölkədə uşaqların yayda dincəlməsi üçün düşərgə infrastrukturu xeyli zəifləyib - iki iqtisadçının izahı



**Azərbaycanda tədris ili başa çatdı. İndi valideynlərin qarşısında duran əsas məsələlərdən biri də məktəbli övladlarının yay tətilini necə və harada keçirməsidir. Uşaqlar ilboyu topladıqları psixoloji və zehni gərginlikdən azad olub, yeni dərs ilinə həm sağlam, həm də motivasiyalı şəkildə başlamalıdırlar. Bunun üçün isə düzgün təşkil olunmuş yay istirahəti vacib amillərdən biridir.**

Bəs bu il uşaqlar üçün ən uyğun istirahət məkanları hansılardır? Azərbaycanın regionlarında uşaqlar üçün nə kimi imkanlar mövcuddur? Gürcüstan və Türkiyədəki uşaq düşərgələri və istirahət mərkəzləri ilə müqayisədə bizdə qiymətlər və xidmət keyfiyyəti hansı səviyyədədir? Valideynlər xarici ölkələrə üz tutsalar, nə qədər xərc etməli olacaqlar və bu xərcə dəyərmi?

Qeyd edək ki, hazırda Azərbaycanda rəsmi fəaliyyət göstərən uşaq yay düşərgələrinin sayı əvvəlki illərlə müqayisədə azalıb. 1990-cı illərdə ölkədə onlarla dövlət və özəl düşərgə fəaliyyət göstərirdisə, bu gün bu say xeyli azdır. Buna baxmayaraq, bəzi regionlarda, xüsusilə İsmayıllı, Qəbələ, Şəki, Qusar, Lerik və Quba kimi dağlıq ərazilərdə fərdi təşəbbüslərlə təşkil edilən uşaq təbiət düşərgələri, dil və idman yönümlü yay proqramları fəaliyyət göstərir.

Bəzi özəl məktəblər, liseylər və liseyəqədər təhsil müəssisələri də yay aylarında öz şagirdləri üçün mini düşərgələr təşkil edirlər. Bu düşərgələrdə uşaqlara təbiətdə vaxt keçirmək, fərdi inkişaf və komanda işi vərdişləri aşılamaq məqsədilə müxtəlif fəaliyyətlər - yürüşlər, oyunlar, dərnəklər və psixoloji təlimlər keçirilir.

Azərbaycandakı uşaq yay düşərgələrinin qiymətləri proqramın müddəti, yerləşmə şəraiti və xidmət çeşidlərinə görə dəyişir. Orta hesabla 5-7 günlük düşərgə üçün bir uşağa görə qiymətlər 150-400 AZN arasında dəyişir. Premium kateqoriyalı mərkəzlərdə bu rəqəm 600-1000 AZN-ə qədər çata bilər.

Lakin burada əsas problem infrastrukturun qeyri-kafi olmasıdır. Bəzi düşərgələrdə nə psixoloq, nə pediatr, nə də ixtisaslı təlimçilər olur. Təhlükəsizlik, tibbi nəzarət və uşağın yaşına uyğun psixoloji proqramların olmaması bu düşərgələri çox zaman sadəcə "uşağın bir yerdə qalması üçün məkan"a çevirir.

Gürcüstan və Türkiyə uşaq düşərgələri sahəsində daha təkmil və rəqabətədavamlı infrastruktur təqdim edir. Gürcüstanda Qara dəniz sahili, Borjomi, Kazbeqi kimi bölgələrdə yay düşərgələri geniş yayılıb. Burada uşaqlar üçün həm istirahət, həm də təhsil elementləri birləşdirilmiş proqramlar hazırlanır: dil öyrənmə, təbiətə çıxışlar, musiqi və idman təlimləri.

Türkiyədə isə Egey və Aralıq dənizi sahillərində fəaliyyət göstərən yay məktəbləri beynəlxalq standartlara cavab verir. Burada təlimçilər peşəkardır, təhlükəsizlik standartları yüksək səviyyədədir və çox zaman valideynlər üçün onlayn izləmə imkanı da təqdim edilir. Qiymətlərsə, inflyasiyanın təsiri ilə 2024-cü ildən etibarən 1 həftəlik proqram üçün 500-1000 ABŞ dolları arasında dəyişir.

Bu rəqəmlər isə Azərbaycan ailələrinin əksəriyyəti üçün əlçatan deyil və nəticədə çoxları daha münasib variantlara üstünlük verir.

İqtisadçı Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında deyib: "Təəssüf ki, Azərbaycanda əvvəlki illərlə müqayisədə uşaqların yay tətilində dincəlməsi üçün düşərgə infrastrukturu xeyli zəifləyib. Əvvəllər belə düşərgələr daha çox idi, xüsusilə də 1990-cı illərdə. Lakin zamanla nədənsə bu düşərgələr sovet dövrünün irsi kimi qəbul edilərək tədricən ləğv olunmağa başladı. Halbuki bu yanaşma kökündən yanlışdır. Çünki uşaq düşərgələri təkcə sovet sisteminə aid deyil, bu gün də dünyanın əksər ölkələrində geniş şəkildə fəaliyyət göstərir.

Məsələn, ABŞ-da "boy scout" və ya "ranger" tipli yay düşərgələri uşaqları təbiətlə tanış edir, onlara təbiəti sevməyi, açıq havada yaşamağı və komandada işləməyi öyrədir. Eyni zamanda, Avropada da uşaqlar üçün müxtəlif profilli düşərgələr fəaliyyət göstərir: təbiət, dil öyrənmə, incəsənət və s. sahələr üzrə təşkil edilən bu düşərgələr həm əyləncəli, həm də maarifləndiricidir. Deməli, düşərgə ideyasının sovetlə heç bir əlaqəsi yoxdur.

Azərbaycanda isə bu infrastrukturun zəifləməsi nəticəsində uşaqların yay tətillərində dincəlməsi əsasən valideynlərin üzərinə düşür. Ən yaxşı halda valideynlər övladlarını regionlara - nənə-baba və ya digər qohumların yaşadığı kəndlərə göndərirlər. Xüsusilə dağ və dağətəyi bölgələrdə yaşayan qohumlara göndərilən uşaqlar tətili daha çox orada keçirirlər. Lakin bu, düşünülmüş, planlı bir yanaşma deyil. Halbuki uşaq düşərgələri həm istirahət, həm də təhsil prosesinin davamı kimi təşkil edilə bilərdi.

Gürcüstan və Türkiyə kimi qonşu ölkələrdə uşaq düşərgələrinin qiymətləri son illərdə artan inflyasiya səbəbindən çox bahalaşıb. Bu səbəbdən valideynlər daha çox ölkə daxilindəki bölgələrə - təbiəti gözəl olan dağ və dağətəyi rayonlara üstünlük verəcəklər. Xüsusilə orada qohumları olan ailələr uşaqlarını həmin bölgələrə göndərməyi seçəcəklər. Bu da o deməkdir ki, Azərbaycanda uşaqların yayda dincəlməsi əsasən bu yolla - qeyri-rəsmi, fərdi təşəbbüslərlə həyata keçiriləcək".

İqtisadçı Eldəniz Əmirov isə qeyd edir ki, Azərbaycanın turizm xidmətlərində regionda əsas rəqibləri olan Türkiyə və Gürcüstana uduzması artıq bir reallıqdır:

"Bu, mübahisə predmeti deyil, hamı tərəfindən qəbul olunmuş vəziyyətdir. Bu səbəbdən, təbii ki, uşaq turizmi ilə bağlı da - yəni uşaqların dincəlməsi baxımından Türkiyə və Gürcüstanda vəziyyət daha üstündür. Təbii ki, bunun həm obyektiv, həm də subyektiv səbəbləri mövcuddur. Gürcüstan isə öz növbəsində müəyyən sahələrdə Türkiyəyə uduzur. Yəni bu baxımdan Türkiyə daha yüksək səviyyədədir, xüsusilə infrastrukturun qurulması və xidmət keyfiyyəti baxımından.

O ki qaldı qiymətlərə, düşünürəm ki, Azərbaycanda qiymətlər bahadır. Yəni Azərbaycanda qiymətlərin baha olması ilə bağlı deyilən fikirlərin ciddi əsası yoxdur. Çünki Azərbaycanda qiymətlərin yüksək olduğu deyiləndə, əsasən yüksək xidmət səviyyəsinə malik, barmaqla sayılacaq qədər az olan turizm mərkəzləri və otellər nəzərdə tutulur. Lakin aşağı səviyyəli, daha əlçatan istirahət məkanları nəzərə alınmır. Həmin yerlərdə isə yalnız bayram və xüsusi günlərdə qiymətlər yüksəlir. Bu da tələbə görədir - çünki həmin kateqoriyada obyektlərin sayı azdır. Gəlin sayaq: 10 milyon əhalisi olan bir ölkədə regionlarımızda neçə yüksək səviyyəli otel var? Əl barmaqlarımızla saymaq mümkündür. Say məhdud olduğuna görə, bayram günlərində həmin məkanlara tələbat kəskin artır. Bu zaman tələb təklifi dəfələrlə üstələyir. Nəticədə, qiymətlərin bahalaşması baş verir. Səbəb də məhz budur.

O ki qaldı tövsiyələrə, hazırı vəziyyətdə mən valideynlərə konkret bir tövsiyə verməkdə çətinlik çəkirəm. Çünki verəcəyim tövsiyə hansısa valideyn üçün əlçatmaz ola bilər, yaxud əksinə, yüksək gəlirli valideynlər üçün çox sadə və zəif görünə bilər. Buna görə də hər kəs öz ailə büdcəsinə uyğun olaraq mövcud bazarı araşdırmalıdır. İnanıram ki, internet üzərindən yarım saatlıq bir araşdırma kifayət edər ki, insan bütün istiqamətlər barədə ətraflı məlumat əldə etsin və bundan sonra düzgün qərar versin".

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"



# Deputat: "Bu qanun kasıb təbəqəyə təsir etməyəcək"

**"Qaz təchizatı haqqında" qanunda xeyli maraqlı və əhəmiyyətli maddələr var. Ümumi götürsək, görünən budur ki, əsasən kasıb təbəqəyə o qədər də təsir etməyəcək".**

Musavat.com xəbər verir ki, bu sözləri deputat Razi Nurullayev parlamentin iclasında müzakirəyə çıxarılan "Qaz təchizatı haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Deputat bildirib ki, məsələ kasıblıq və varlılıqda deyil, qanunun ədalətli olmasındadır: "Vətəndaş qaz çəkilişi zamanı mənzilə və evlərə çəkiliş haqqını ödəyir və sayğaca görə də ödəniş edir. Ödəniş xeyli böyük rəqəmdir. İndi onlar sabit tarif də ödəməlidir. Yəni istəyirsən qazı işlət, ya da işlətmə, aylıq müəyyən edilmiş məbləği ödəməlisən. Bu, mənə ədalətli yanaşma kimi görünmür. Bilmək istəyirəm ki, bu məsələ hansı təcrübədən yaranıb? Biz bu təcrübəni hansı qonşu ölkələrdən əxz etmişik? Rusiyada, Gürcüstanda, Türkiyədə, İranda və digər yaxın ölkələrdə bu praktika varmı? Bu qanunu tələsik qəbul etməyək, ciddi müzakirə aparaq, istehlakçıların müzakirəsinə çıxaraq".

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

# Şad xəbər: qeyri-neft gəlirlərimiz artır - Gözlənti

## Beş aylıq göstəricilər açıqlandı: investisiya qoyuluşu azalıb, ərzaq inflyasiyası isə…

**2025-ci ilin may ayında Azərbaycanda istehlak qiymətləri indeksi 2024-cü ilin may ayı ilə müqayisədə 6,3 faiz yüksəlib. Dövlət Statistika Komitəsindən "Yeni Müsavat"a verilən məlumata görə, beş ayda qida məhsulları, alkoqollu içkilər və tütün məmulatlarının qiyməti 7,8 faiz, qeyri-qida məhsullarında 2,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdə 7,3 faiz artıb.**

May ayı ərzində istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,1 faiz azalıb, yanvar-may aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,9 faiz artıb. Rəsmi statistika orqanına görə, 2025-ci ilin may ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,4 faiz azalıb, yanvar-may aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,5 faiz artıb. O cümlədən cari ilin may ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma mal ətinin, kolbasa məmulatlarının, kərə, günəbaxan və qarğıdalı yağlarının, limonun, almanın, armudun, kivinin, ağ kələmin, brokkolinin, süfrə çuğundurunun, təbii balın, qəhvənin, kakaonun, ucuzlaşma isə yumurtanın, bananın, çiyələyin, göyərtinin, xiyarın, pomidorun, şirin bibərin, badımcanın, sarımsağın, soğanın, kartofun qiymətlərində müşahidə olunub. Digər qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

2025-ci ilin may ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,2 faiz, yanvar-may aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,7 faiz yüksəlib. May ayında əvvəlki ayla müqayisədə qeyri-qida məhsullarından bahalaşma yay geyimlərinin, sementin, məişət cihazlarının, ucuzlaşma isə kəsilmiş taxtanın, kərpicin və planşet kompüterlərin qiymətlərində müşahidə olunub.

May ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 0,2 faiz, yanvar-may aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,6 faiz artıb. May ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən tibbi xidmətlərin, restoran və kafelər tərəfindən göstərilən iaşə xidmətlərinin qiymətlərində müşahidə olunub, ucuzlaşma qeydə alınmayıb.

Azərbaycan Mərkəzi Bankının proqnozuna görə, 2025-2026-cı illərdə Azərbaycanda inflyasiya hədəf diapazonu daxilində, yəni 4-6 faiz civarında olacaq. Tənzimləyiciyə görə, Azərbaycanda inflyasiyaya təsir edən əsas amillər xarici faktorlardır.

Rəsmi statistikanın açıqladığı məlumatlar ölkə iqtisadiyyatında yanvardan bəri qeydə alınan durğunluğun qismən aradan qalxdığını göstərir. Belə ki, 2025-ci ilin yanvar-may aylarında Azərbaycanda 50 milyard 99,5 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Rəsmi statistikaya görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,0 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 3,9 faiz artıb. Müqayisə üçün qeyd edək ki, ötən ilin eyni dövründə ölkədə 4.2 fazilik ÜDM artımı qeydə alınmışdı. O cümlədən neft-qaz sektorunda artım olmasa da, qeyr neft-qaz sektorunda 7,3 faizlik böyümə olmuşdu.

Cari ilin 5 ayında ÜDM istehsalının 36,2 faizini təmin edən sənaye sahəsində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 26 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz az sənaye məhsulu istehsal edilib. Sənayenin neft-qaz sektorunda məhsul istehsalı 2,8 faiz azalıba (ötən il 0,2 faiz azalma), qeyri neft-qaz sektorunda isə 6,4 faiz(7 faiz artım) artıb.



Sənaye məhsulunun 62,2 faizinin əldə olunduğu mədənçıxarma sektorunda, əmtəəlik neft hasilatı 4,9 faiz azalıb(azalma 5,7 faiz), əmtəəlik qaz hasilatı isə 1,7 faiz(artım 4,1 faiz) artıb. Bu rəqəmlərdən aydın olur ki, neft hasilatının azalma sürəti xeyli yavaşıyıb. Bu, ötən ilin aprelindən Azəri-Çıraq-Günəşli yatağında ACE platformasından hasilatın başlanması ilə bağlıdır. Platformadan hasilatın gündəlik 100 min barelə çatdırılması nəticəsində ümumi yataqdan hasilatın azalma tempi yavaşıyıb. Qaz hasilatı sahəsində artımın aşağı olması isə ən böyük yataq olan "Şahdəniz"də yanvar ayında texniki problemə görə 10 gün müddətində hasilatın məhdudlaşdırılması ilə bağlıdır.

DSK-nın məlumatına görə, 2025-ci ilin yanvar-may aylarında Azərbaycan iqtisadiyyatına investisiyalar 6 milyard 694,6 milyon manat təşkil edib. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz azdır. Beş ayda neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 21,9 faiz azalıb, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 11,7 faiz artıb. Əsas kapitala yönəldilmiş investisiyaların 5 milyard 48,7 milyon manatını və ya 75,4 faizini daxili investisiyalar təşkil edib. Ötən ilin eyni dövründə iqtisadiyyata investisiya qoyuluşları 11 faiz, o cümlədən neft-qaz sektoruna 9,2 faiz, qeyri neft-qaz sektoruna isə 12,1 faiz artmışdı.

Bu ilin beş ayında ölkənin pərakəndə ticarət şəbəkəsində istehlakçılara 23 milyard 341,3 milyon manat mal və məhsul satılıb. Bunun 13 milyard 73,4 milyon manatı ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 10 milyard 267,9 milyon manatı isə qeyri-ərzaq mallarının alışına sərf olunub. 2024-cü ilin yanvar-may ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,6 faiz, qeyri-ərzaq malları üzrə 6,5 faiz artıb.

2025-ci ilin yanvar-may aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 51,4 faizi ərzaq məhsullarının, 4,6 faizi içkilər və tütün məmulatlarının, 13,0 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,3 faizi avtomobil benzini və dizel yanacağının, 4,4 faizi elektrik malları və mebellərin, 2,6 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,5 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub. Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 456,2 manat xərcləyib ki, bunun da 255,5 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatlarının, 200,7 manatı isə qeyri-ərzaq mallarının alınmasına sərf edilib.

Beş aylıq göstəricilərdə müsbət məqam iqtisadi artımın sürətlənməsidir. Bu sırada qeyri-neft ixracındakı artım diqqəti cəlb edir. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "İxrac icmalı"nın iyun sayının ilkin məlumatlarına əsasən 2025-ci ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft ixracı 1,4 milyard dollara bərabər olub. Bu, 2024-cü ilin eyni dövrü ilə müqayisədə 11.6 faiz artım deməkdir.

Yanvar-may aylarında yeyinti məhsulları üzrə ixrac 14,4 faiz artaraq 417.7 milyon ABŞ dollarına bərabər olub. Həmçinin kimya sənayesi məhsulları ixracı ötən ilin müvafiq dövrünə nəzərən 46,8 milyon ABŞ dolları və ya 45,9 faiz, şəkər 3 milyon ABŞ dolları və ya 30,1 faiz, pambıq iplik 1,3 milyon ABŞ dolları və ya 14,5 faiz, meyvə-tərəvəz 48 milyon ABŞ dolları və ya 19,1 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 3,8 milyon ABŞ dolları və ya 11,3 faiz artıb.

Qeyd olunan dövrdə ixrac olunan aqrar məhsullar 17.2 faiz artaraq 331,2 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları 5,9 faiz artaraq 115.6 milyon ABŞ dollarına bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 14 faiz artaraq 446,7 milyon ABŞ dolları təşkil edib.

Qeyri-neft ixracındakı bu artıma rəğmən, onun səviyyəsini, ölkənin ümumi ixracındakı payını yetərli saymaq qeyri-mümkündür. Belə ki, cari ilin yanvar-aprel aylarında Azərbaycanın ümumi ixracı 8 milyard 785 milyon dollar təşkil edib. Bu ixracın cəmi 1,1 milyard dolları qeyri-neft sektorunda istehsal olunan məhsulların payına düşüb. Azərbaycan statistikası bir qayda olaraq təbii qaz və mazutdan əldə olunan elektrik enerjisi, həmçinin qazdan istehsal edilən gübrələri də qeyri-neft məhsulu kimi qeydə alır. Bu isə o deməkdir ki, real qeyri-neft ixracının həcmi açıqlanan rəqəmdən daha aşağıdır. Uzun müddətdir ölkədə qeyri-neft sahəsinin inkişafına yönəlik siyasət yürüdülsə də, ciddi nəticənin əldə olunduğunu söyləmək mümkün deyil. Buna görə də ölkə bazarı, inflyasiya kimi proseslər xarici təsirlərə həddən artıq həssasdır. Bu həssaslığı əsas ixrac məhsulu olan neftin dünya bazar qiyməti daha da artırır. Belə ki, getdikcə artan idxal fonunda son aylarda neft qiymətlərinin azalması baş verir. Nəticədə ölkəyə idxalı təmin etmək üçün zəruri olan valyuta axını azalır. Yanvar-apreldə ixrac idxaldan cəmi 651,79 milyon dollar çox olub ki, bu da illik ifadədə 4.15 dəfə azalma deməkdir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8712) 14 iyun 2025

# "Qarabağ"dan kütləvi ayrılıq - taktik dəyişiklik, yoxsa...

## Ağdam klubu transferlərə start verir; Qurbanova necə oyunçular lazımdır?



**"Qarabağ" futbol klubu əlcəzairli futbolçusu Yassin Benzia ilə yollarını ayırıb. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 30 yaşlı yarımmüdafiəçinin başa çatan müqaviləsi yenilənməyib. "Bu, karyeramda son dərəcə vacib bir fəsilin sonudur. Bütün "Qarabağ" klubuna, rəhbərliyə, məşqçilərə (cənab Qurban Qurbanov, hər şey üçün təşəkkür edirəm), personala, azarkeşlərə və əlbəttə ki, komanda yoldaşlarıma təşəkkürümü bildirmək üçün söz tapmaqda çətinlik çəkirəm".**

Qol.az xəbər verir ki, bu sözlər "Qarabağ"la yollarını ayıran Yassin Benziaya məxsusdur. Əlcəzair millisinin 30 yaşlı yarımmüdafiəçisi İnstaqramda "Qarabağ"a vida paylaşımında həmçinin yazıb: "Başımın üzərindən keçən bütün hadisələrdən sonra məhz burada yenidən oynamaq sevincini tapdım. Kuboklar qazanmaq, qol vurmaq, komanda yoldaşlarıma qol ötürmələri vermək, komandamızın Avropada parlamasına kömək etmək, milli komandaya qayıtmaq... Sadəcə hər şey üçün təşəkkür edirəm. Həmişə qəlbimdə qalacaqsınız".

Qeyd edək ki, Y.Benzia "Qarabağ"a 2023-cü ildə Fransanın "Dijon" klubundan keçmişdi. O, bu komandada 104 oyun keçirib, 28 qol vurub, 25 qolun isə ötürməsini edib.

Klub monteneqrolu futbolçusu Marko Veşoviç, Patrik Andrade və İsmayıl İbrahimli ilə də yollarını ayırıb. Son iki mövsümdə icarə əsasında "Zirə"də çıxış edən 27 yaşlı azərbaycanlı yarımmüdafiəçi ilə müqaviləyə qarşılıqlı razılaşma ilə xitam verilib.

Bəs idman biliciləri bu ayrılıqlara nə deyir? Yeni mövsümdə əvvəlki "Qarabağ"ı görə biləcəyikmi? Baş məşqçi Qurban Qurbanov qalan müddətdə heyəti gücləndirə, klubdan ayrılan legionerlərin yerini doldura, ölkə çempionu "döyüş qabiliyyətini" bərpa edə biləcəkmi?

Futbolla yaxından maraqlanan deputat Fazil Mustafa nikbindir. Onun fikrincə, "Qarabağ" həmişə ən faydalı oyunçuları seçməyə çalışır: "Futboldur, gətirilən oyunçuların içərisində özünü doğrultmayan da ola bilər. Amma əsasən düzgün seçimlər edirlər. Ona görə də bu, baş məşqçinin öhdəsinə buraxılıbsa, hesab edirəm ki, o, doğru seçimi edəcək. Burada məncə, bir narahatlığa dəyməz. Təbii ki, daha güclü komanda formalaşdırmaq üçün oyunçuların "Qarabağ"a gələndən sonrakı performansı önəm daşıyır. Bütün hallarda "Qarabağ" təcrübəli bir klubdur, Avropa təcrübəsi kifayət qədər böyükdür. Özünə lazım olan nədirsə, onu doğru seçməyi bacarır. Məncə, transfer sezonunu normal qiymətləndirib hər hansı Çempionlar Liqasının qrup mərhələsinə qalmaq üçün mübarizə apara biləcək heyət formalaşacaq. Bilirsiniz, bu heyətdə ulduz oyunçudan daha çox kollektiv içərisində yükü üzərinə götürə biləcək, fədakarlıq edəcək oyunçulara ehtiyac var. Bu fədakarlıq olmayandan sonra ən bahalı, qabiliyyətli sayıla biləcək oyunçu belə kluba fayda verə bilmir. Bunu biz Türkiyə futbolu təcrübəsində də görürük".

F.Mustafa deyib ki, məsələn, bahalı transferlər ya "Fənərbaxça", ya da "Beşiktaş" edir, amma oyunçu sadəcə gəlib orada vaxtını keçirməklə məşğul olur: "Fədakar bir oyun göstərməyə meylli olmur. Məsələn, "Qalatasaray"da Osimen həqiqətən də böyük fədakarlıq nümayiş etdirdi. "Qalatasaray" kimi bir komandanı, özü də bir topdan sonra əzilən, sökülən bir komandanı əslində ən azı qollar atmaqla, can yandırmaqla irəli apara bildi, çempion etdi. Məsələyə bu baxımdan yanaşılmalıdır. Burada da oyunçuların kifayət qədər təcrübələri var. Xüsusilə, Elnur Cəfərquliyevi fərqləndirirəm. O, çox fədakar oyunçulardan biridir. Eyni zamanda, Bəhlul Mustafazadənin özü də xeyli püxtələşdi. Medinanın özü çox yaxşı oyunçudur. Məncə, bunlara bir neçə daha futbolçu əlavə olunsa, hər halda o yükü qaldıra biləcəklər. Ən azından komandanı Çempionlar Liqasında təmsil edə biləcək səviyyədə irəli aparmaq mümkün olacaq".

Tanınmış idman yazarı Natiq Muxtarlı isə burada təəccüblü heç nə görmür. O, "Qarabağ"ın bu qərarlarını dəstəkləyir: "Qarabağ"da zaman-zaman ayrılıqlar olub və hər dəfə də futbol ictimaiyyəti narahatlıq keçirib: Gedənin yerini doldurmaq mümkün olacaqmı? Və hər dəfə də sonradan hər hansı boşluğun olmadığını görmüşük. Bu dəfə isə birdən-birə 4 futbolçunun getdiyinin eyni gündə açıqlanması narahatlığın dozasını xeyli artırdı. Güman ki, bu ayrılıqların hər birinin məntiqi izahı var: Qurban Qurbanov meydanda istədiyini ala biləcəyi futbolçudan asanlıqla imtina etməz".

Yazara görə, böyük ehtimalla, yaşı artıq 31-i keçən Benzia pul haqda düşünür: "İstədiyi pulu isə ona ancaq ərəblər verə bilər. Daha əvvəl Benzia ilə ərəblərin maraqlandığı bildirilirdi. Güman ki, Yassin ərəb klublarından biri ilə anlaşacaq və karyerasının son mərhələsində yaxşı qazanacaq.

Andradenin "Qarabağ"a qayıdışı əvvəlki effekti vermədi. Qurban Qurbanov ondan tam istədiyini ala bilmədi. Veşoviç də zədələndikdən sonra əsas heyətdəki yerini itirmişdi. Yəqin ki, məşqçilər korpusu onun əvvəlki Veşoviç olacağına inanmadıqları üçün ayrılıq qərarı veriblər.

İsmayıl İbrahimlinin isə "Qarabağ"da əsas heyətə düşmək şansı qəti yox idi. Nəzərə alaq ki, növbəti mövsümdə limit olmayacaq. Yəni yerli futbolçular limitin sayəsində meydana çıxmaq şansından məhrumdurlar. Onlar yalnız rəqabət aparıb güclü olduqlarını sübut etdikdən sonra meydana çıxa bilərlər. İsmayıl isə "Qarabağ"dakı rəqabətə tab gətirə bilməzdi. Ona görə də, getməyi məqbul addımdır. Digər komandalarda əsas heyətdə meydana çıxa bilər ki, bu da "Qarabağ"da ehtiyatda oturmaq variantından yaxşıdır. Qalır əsas məsələ: Gedənlərin yerini doldurmaq mümkün olacaqmı? Qurban Qurbanov futbolçu seçimində çox həssasdır. Oyun fəlsəfəsinə uyğunluqla yanaşı, həm də futbolçunun xarakterinə də önəm verir. Böyük ehtimalla, gözaltı etdikləri, hətta danışıqlar apardıqları futbolçular var. Unutmayaq ki, "Qarabağ"da həm də Juninyonun da yeri doldurulmalıdır. Məncə, hazırda "Qarabağ"da ən böyük boşluğun hiss olunduğu mövqe məhz hücumdur.

Transferlərin olacağı dəqiqdir. Amma o transferlər heyətə sürətlə adaptasiya ola biləcəklər? Yenilər Çempionlar Liqasının oyunlarına qədər formaya düşəcəklər? Bu suallara cavab vermək asan deyil. Sadəcə, "Qarabağ" mübarizəyə ikinci təsnifat mərhələsindən başlayacağı üçün vaxtı bir qədər çox olacaq.

Ümid edək ki, yeni transferlərdə yanılma olmayacaq, onlar "Qarabağ"ın gücünə güc qatacaqlar. Amma bütün hallarda mən "Qarabağ"ın Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanacağını düşünmürəm. Avropada futbol günü-gündən inkişaf etdiyi, Azərbaycanda isə geri getdiyi bir vaxtda bunu reallaşdırmaq möcüzə olardı. Amma "Qarabağ"ın Avropa Liqasının qrupunda olması realdır. Ən pis halda "köhlən atlar" Konfrans Liqasının qrupunda mütləq olacaqlar. Bilirsiniz, Azərbaycanda futbolun inkişafı rəqabətdən keçir. Rəqabət olmayan yerdə, "Qarabağ"ın da inkişafı mümkün deyil. Ona görə də "Qarabağ"ın qarşısında real olmayan hədəflər qoyanda, həm də Azərbaycan futbolunun reallıqlarını nəzərə almalıyıq. Bu, ədalətli və məntiqli yanaşma olardı".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# FİFA dünya çempionatına bilet sata bilmir



**FİFA klublararası dünya çempionatının "Əl Əhli" (Misir) - "İnter Mayami" (ABŞ) açılış matçına bütün biletləri sata bilmir. QOL.az xəbər verir ki, bu barədə "The Athletic" məlumat yayıb.**

Mayamidəki "Hard Rok" stadionu 65 min tamaşaçı tutumuna malikdir. Lakin indiyədək cəmi 20 min bilet satılıb. FİFA çıxış yolunu 100 min tələbəsi olan Mayami Dade Kolleci ilə əməkdaşlıqda tapıb. Belə ki, bilet alan hər tələbə 4 bileti pulsuz əldə edəcək. Bu halda 3,5 avroluq xüsusi qiymət tətbiq olunacaq.

FİFA prezidenti Canni İnfantino məsələ haqda deyib: "Stadionu dolduracağıq, atmosfer əla olacaq. Bəli, hələ satılmamış biletlər var, amma yaxın günlərdə daha çoxunu satacağıq".

Klublararası dünya çempionatı 2025-ci il iyunun 14-dən iyulun 13-dək ABŞ-da keçiriləcək.Turnirdə müxtəlif qitələrdən 8 qrupa bölünmüş 32 komanda iştirak edəcək. 1-ci və 2-ci yerləri tutan komandalar 1/8 finala yüksələcək.

# "Millimizdə əzm gördük" - Əfran İsmayılov



**"Latviya bizdən zəif idi. Onları rahat şəkildə uda bilərdik. Ancaq hücumda "dişsiz" olduq. Açıq desək, biz öz qapımıza qol vurmasaydıq, Latviya qol vurası komanda deyildi. Təəssüf ki, qalib gəlməli olduğumuz oyunda heç-heçə oynadıq".**

Bu sözləri QOL.az-a açıqlamasında Azərbaycan millisinin sabiq üzvü Əfran İsmayılov deyib.

Millimizin Latviya (0:0) və Macarıstanla (1:2) keçirlən yoxlama oyunları ilə bağlı danışan keçmiş yarımmüdafiəçi futbolçularımızın son görüşdə yaxşı mübarizə apardıqlarını bildirib: "Macarıstanla oyunda millimiz həqiqətən çox yaxşı oynadı. Komanda şəklində inamlı mübarizə apardılar. Macarıstanın çox yaxşı heyəti olsa da, bizim millimizdə əzmkarlıq gördüm. Ümumiyyətlə, millimizdə çoxdandır görmədiyimiz əzmi, istəyi gördük. Uduzsaq da, komandanın çıxışından çox razı qaldım. Ümid edək ki, belə oyunun davamı gələcək".

Ə.İsmayılov seçmə mərhələ oyunlarına hazırlıq xarakteri daşıyan yoxlama matçlarından sonra ümidli olmadığını qeyd edib: "Bəli, Macarıstanla görüşdə millimizdən yaxşı oyun gördük. Amma bir oyunla hər şey bitmir. Artıq 10 oyundur Santuşun oyun sistemini müşahidə edirik. Son oyunu çıxmaqla digərilərində sistem görmürdüm. Son oyunda millidə keyfiyyəti gördüm. Təki belə davam etsin. Qeyd etdiyim kimi, bir oyunla nəsə demək olmaz. Çox ağır qrupa düşmüşük. Millimiz əlindən gələni etməlidir ki, xal qazana bilsin. Xallar yox, xal deyirəm. Çünki komandada o motivasiyanı görə bilmirik ki, ürəkli danışaq. Yoxlama matçlarında qələbələr olsaydı, seçmə mərhələyə daha inamlı başlamaq olardı".

Ə.İsmayılov əlavə edib ki, uzunmüddətli qələbəsizlik seriyasının millimizə təsiri qaçılmazdır: "Əlbəttə ki, futbolda psixoloji amil çox önəmlidir. Hər halda futbolçular dərk edir ki, 10 oyun qalib gələ bilməmək yaxşı göstərici deyil. Əslində seçmə mərhələdə qarşımızda elə rəqiblər var ki, burda psixoloji faktor da əsas rol oynamır. Belə komandaları ilk növbədə yaxşı analiz edib, lazım olan sistemlə oynamaq lazımdır. Yəni bunlar yoxlama matçlarındakı kimi rəqiblər deyil. Bir səhvi belə bağışlamayacaqlar. Bunu da millimizin futbolçuları və baş məşqçisi dərk edir".

YENİ MÜSAVAT
Son səhifə
N 102 (8712) 14 iyun 2025

## Bunları bilirsinizmi?

* Yuxusuzluq şikayəti ilə həkimə müraciət edən insanların IQ səviyyəsinin normadan yüksək olduğu müşahidə edilir.
* İnsanlar yuxuladığı zaman qoxu ala bilmirlər.
* Niaqara şəlaləsindən düşüb sağ qala bilən ilk insan Bobbi Liç evdə portağal qabığına basaraq yıxılmış və daxili qanaxma səbəbilə dünyasını dəyişmişdir.
* Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.
* İnsan ildə ən az 1460 ədəd yuxu görür.
* "Karaoke" sözü Yapon dilində "quru orkestr" sözünün qısaldılmasıdır. "Kara" Yapon dilində boş deməkdir.
* Ördəyin səsi əks-səda vermir.
* Ən böyük quş yumurtası dəvəquşunundur. Yumurta 15 - 20 santimetr uzunluğunda və ortalama 1,7 kiloqram ağırlığındadır. Qaynadılaraq bişirilməsi isə 40 dəqiqə çəkir.
* Ən ağıllı heyvanlardan biri olan qarğalar, insanlar kimi yaşlı valideynlərini illər sonra gedib ziyarət edirlər.
* Ağcaqanadlar əllərini ovuşdurup başlarından keçirmə hərəkətini, uçarkən əllərinə yapışan molekulları təmizləmək məqsədi ilə edirlər.



## Azərbaycanda da satılan bu ağrıkəsici geri çağırılır - Təhlükə aşkarlandı

**Azərbaycanda da geniş istifadə olunan və reseptsiz satılan ağrıkəsici parasetamolun bəzi partiyaları çirklənmə şübhəsi ilə bazardan geri çağırılır.**

Milli.Az xəbər verir ki, bu barədə məlumatı Dərman və Sağlamlıq Məhsullarını Tənzimləmə Agentliyi (MHRA) yayıb.

Agentliyin açıqlamasına görə, Chelonia Healthcare Limited tərəfindən istehsal edilən 500 mq-lıq parasetamol tabletlərinin 2312010 və 2312011 nömrəli partiyaları rəng dəyişikliyi səbəbilə geri çağırılıb. Sözügedən dərmanların bu il buraxıldığı və son istifadə tarixinin 30 noyabr 2027-ci il olduğu bildirilib.

"Tabletlər bir tərəfində zolaq olan ağ kapsul formasında olmalıdır. Əgər bu partiyalardan alınmış qutuların içində rəngi dəyişmiş hər hansı tablet görsəniz, dərhal əczaçıya və ya həkiminizə müraciət edin", - deyə MHRA-nın açıqlamasında qeyd olunur.

Səlahiyyətli qurum bu dərmanlardan istifadə edən şəxslərə əks təsirlər müşahidə edildikdə dərhal həkimə müraciət etməyi, səhiyyə işçilərinə isə sözügedən partiyaların paylanmasını dərhal dayandırmağı tövsiyə edib.

# İsraildə ayaqqabı iplərini bağlayan qurğu hazırlandı



**İsrailin Ariel Universitetinin tələbələri yaşlı və xəstə insanların ayaqqabılarının iplərini bağlayan mexanizm hazırlayıblar. İdeyanın müəllifi Yam Dahan özünün 88 yaşlı babasına kömək etmək üçün mexanizmi hazırlamağa qərar verib. Dahan yoldaşları ilə birlikdə qurğunu "Tie-Robot" adlandırıblar. Hazırda qurğu universitet müəllimləri tərəfindən qiymətləndirilir. Bundan sonra Dahan cihazı babasına təqdim edə bilər.**

## ABŞ-da nazirə sual vermək istəyən senatora güc tətbiq edildi



**ABŞ-nin daxili təhlükəsizlik naziri Kristi Noemin mühafizəçiləri amerikalı senator Aleks Padilyanı (Kaliforniya ştatından olan demokrat) mətbuat konfransından zorla uzaqlaşdırıblar.**

Oxu.Az-ın TASS-a istinadən verdiyi xəbərə görə, insident Kaliforniya ştatının Los-Anceles şəhərində baş verib.

Noemin çıxışı zamanı Padilya tribunaya yaxınlaşmağa cəhd edib.

ABŞ daxili təhlükəsizlik nazirinin mühafizəçiləri müqavimət göstərən və Noemə yaxınlaşmağa cəhd edən 52 yaşlı qanunvericinin qollarını burublar. Onu məkandan çıxarıb əllərini qandallayıblar.

Senator daha sonra sərbəst buraxılıb. K.Noem insidentdən sonra verdiyi açıqlamada mühafizəçilərin senatoru tanımadığını, hadisədən sonra onunla söhbət etdiyini bildirib.

## Gəncləri qocaldan içki və qidalar bəlli oldu

**Yuvyaskul Universitetinin fin alimləri müəyyən ediblər ki, qeyri-sağlam qida və içkilər hətta gənclərdə də bioloji qocalmanı sürətləndirə bilər. Tədqiqat "Clinical Nutrition" (CliNut) elmi jurnalında dərc olunub. Bioloji yaş orqanizmin vəziyyətini hüceyrə səviyyəsində əks etdirir və xronoloji yaşdan fərqlənə bilər. Bunu ölçmək üçün alimlər epigenetik saatlardan - bioloji yaşı təyin etmək üçün DNT metilasiyasını təhlil edən modellərdən istifadə edirlər.**

Tədqiqatda 20-25 yaş arası 826 əkiz iştirak edib. İştirakçılar 55 qida məhsulunun istehlak tezliyini göstərdikləri anketləri doldurublar. Tədqiqatçılar fiziki fəaliyyət, siqaret və bədən çəkisi kimi digər həyat tərzi faktorlarını da nəzərə alıblar. Nəticələr göstərib ki, meyvə və tərəvəzləri az, qırmızı və emal olunmuş ət, fastfud və şəkərli içkilərdən isə çox istifadə edənlər bioloji qocalma ilə qarşılaşırlar. Bunun əksinə olaraq, sağlam pəhrizlə qidalanan iştirakçılar daha yavaş qocalmağa meyillidirlər.

Tədqiqat həmçinin müəyyən edib ki, genetika pəhriz və yaşlanma arasındakı əlaqədə mühüm rol oynayır. Lakin bu o demək deyil ki, sağlam qidalanma bəzən fayda verməyə bilər. Alimlərin fikrincə, genetik meyliniz olsa belə, düzgün pəhriz qocalma prosesini ləngidir.

## "WhatsApp"da oxunmamış mesajlarla bağlı yeni süni intellekt funksiyası yaradıldı



**"WhatsApp" mesenceri süni intellektə (AI) əsaslanan yeni funksiyanı sınaqdan keçirməyə başlayıb. Bu funksiya istifadəçilərə şəxsi çatlarda, qruplarda və kanallarda oxunmamış mesajların məzmununun qısa xülasəsini əldə etməyə imkan verəcək.**

Oxu.Az-ın xəbərinə görə, bu barədə "9to5Mac" nəşri məlumat verib.

Məlumata görə, uzun yazışmalarla tanış olmağı asanlaşdırmaq üçün nəzərdə tutulmuş bu funksiya hazırda yalnız "Android" platformasında beta testerlərin məhdud dairəsi üçün əlçatandır.

Süni intellekt xülasələrini aktivləşdirmək üçün istifadəçilər təhlükəsiz mühitdə sorğuları emal etmək üçün nəzərdə tutulmuş "Private Processing" funksiyasını işə salmalıdırlar. Aktivləşdirildikdən sonra oxunmamış mesajların sayı çox olarsa, standart "X oxunmamış mesajlar" yazısı "Meta AI" qeydi olan düymə ilə əvəz olunacaq. Bu düymənin üzərinə kliklədikdə yazışmaların xülasəsi yaranacaq.

Şirkət vurğulayıb ki, bu funksiyadan istifadə zamanı məlumatların məxfiliyinə xüsusi diqqət yetirilir. Mesajların məzmunu saxlanmır və istifadəçinin hesabı ilə əlaqələndirilmir. Məlumatların emalı təcrid olunmuş "bulud" mühitində həyata keçirilir, hazır xülasələr isə istifadə edildikdən dərhal sonra avtomatik olaraq silinir. Bundan əlavə, genişləndirilmiş məxfilik ("Advanced Privacy") funksiyasının aktivləşdirildiyi dialoqlarda funksiya avtomatik olaraq sönür ki, bu da süni intellektlə hər hansı qarşılıqlı əlaqəni, hətta uçdan-uca şifrələməni də istisna edir.

Hazırda funksiya sınaq mərhələsindədir və tətbiqin beta versiyası vasitəsilə yalnız bəzi "Android" istifadəçiləri üçün əlçatandır. Onun geniş auditoriya üçün tam istifadəyə verilməsi ilə bağlı dəqiq tarix, həmçinin iOS platformasında əlçatan olması və müxtəlif dillər və regionlar üçün dəstəklənməsi haqqında məlumatlar hələ açıqlanmayıb.

## İnanılmaz kəşf: Bitkilər yalan danışır və qeybət edirlər

**Böyük Britaniya və Niderlanddan olan beynəlxalq alimlər qrupu belə qənaətə gəliblər ki, bitkilər öz mənfəətləri və sağ qalmaq üçün bir-birlərini aldada bilirlər. Tədqiqat "Proceedings of the National Academy of Sciences" (PNAS) elmi jurnalında dərc olunub. Bildirilib ki, bitkilər köklərini birləşdirən yeraltı göbələk sistemi olan mikorizal şəbəkə vasitəsilə əlaqə qururlar. Onlar öz qonşularını təhlükə barədə xəbərdar edirlər. Lakin bəzən yalançı təhlükə xəbərdarlıqları da ola bilər. Bu, canlı orqanizmləri yalançı təhlükəyə qarşı müdafiəni aktivləşdirmək üçün çoxlu resurs sərf etməyə məcbur edir.**

"Ola bilsin ki, bitkilər qeybət edən qonşular kimi sadəcə olaraq bir-birini dinləyirlər. Və ya mikorizal şəbəkəsindəki göbələklər karbohidrat mənbələrini qorumaq üçün yalançı hücum haqqında məlumat ötürürlər", - tədqiqatın həmmüəllifi Tobi Kirs bildirib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Redaktor: Emil SALAMOĞLU
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Lisenziya N: B 114
SAYI: 1.500